21_27 IYUl-QARA.qxd 6/11/2026 7:49 PM Page 1

UNİKAL

№21 (2301) 12 iyun 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az



# Paşinyanın iç üzü ortaya çıxır

*Ermənistanda növbədənkənar parlament seçkilərindən sonra siyasi qüvvələr hələ yekun nəticələrin tam rəsmiləşdirilməsini gözləsələr də, hakimiyyət artıq növbəti mərhələnin - yeni parlamentin və hökumətin formalaşdırılmasının hazırlıqlarına başlayıb. Bu isə onu göstərir ki, Baş nazir Nikol Paşinyan və onun rəhbərlik etdiyi "Vətəndaş Müqaviləsi" partiyası hakimiyyətini uzunmüddətli siyasi strategiyaya çevirmək niyyətindədir. Məlumata görə, parlamentin 8-ci çağırışının səlahiyyətlərinin son günü 2 avqusta təyin edilib və həmin gün konstitusiya tələbinə uyğun olaraq yeni parlamentin ilk iclası çağırılacaq. Parlamentin ilk iclaslarında spiker və vitse-spikerlərin seçilməsi, komitələrin formalaşdırılması və daha sonra baş nazirin təsdiqlənməsi prosesi həyata keçiriləcək. Ardınca Paşinyan yeni hökumət kabinetini təqdim edəcək və ölkənin növbəti illər üçün siyasi kursunu müəyyənləşdirəcək.Lakin əsas sual Ermənistan daxilindəki texniki hakimiyyət bölgüsü deyil. Əsas məsələ Paşinyanın növbəti dövrdə hansı geosiyasi xətti seçəcəyi və bu xəttin region üçün hansı nəticələr doğuracağıdır.*

Səh.9

# Ölkə səhiyyəsində növbəti qalmaqal



Səh.6

## "Dövlətlə cəmiyyət arasında çox mühüm bir anlaşma və konsensus formalaşdı"



*Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, deputat Zahid Oruc "Unikal"a müsahibə verib. O, uşaqların sosial şəbəkələrdə qeydiyyatı ilə bağlı yeni tələblərin müəyyənləşməsindən, 16 yaşından kiçik uşaqların sosial mediadan istifadəsinin qarşısının alınmasının vacibliyindən, layihə hazırlanarkən hansı ölkələrin təcrübəsinin öyrənilməsindən və başqa...*

Səh.4

## Ölkədə qiymətlər yenidən kəllə-çarxa qalxdı



*Son günlər ölkə üzrə bəzi mağazalarda əsas istehlak məhsullarının qiymətlərində artım müşahidə olunur. Xüsusilə şokolad, kərə yağı, duru yağlar, məişət salfetləri kimi gündəlik istifadə olunan məhsullarda qiymət dəyişikliyi var. Bəzi məhsullar əvvəlki qiymətindən xeyli yüksək...*

Səh.5

## "Birinci Qarabağ müharibəsindən bu yana 4009 Azərbaycan vətəndaşı itkindir" - Hikmət Hacıyev



*Birinci Qarabağ müharibəsindən 30 ildən artıq vaxt keçməsinə baxmayaraq, 4 009 Azərbaycan vətəndaşı hələ də itkin düşmüş şəxs kimi qeydiyyatdadır. "Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev...*

Səh.3

# Afət həmkarı ilə qırğına çıxdı: ""YouTube" kanalını bağlatdıracağam"



***Müğənni Afət Fərmanqızı daha bir həmkarı ilə qalmaqalla gündəmə gəlib.***

Sənətçi bu dəfə həmkarı Arzu adlı ifaçı ilə mahnı məsələsi üstündə mübahisə edib. O, qarşı tərəfə sərt şəkildə irad bildirərək müəllif hüquqları ilə bağlı xəbərdarlıq edib.

Afət Fərmanqızı bildirib ki, onun ifalarının icazəsiz istifadə olunmasına qarşı çıxacaq və bu cür halların davam edəcəyi təqdirdə hüquqi addımlar atıla bilər. Sənətçi həmçinin "YouTube" kanalının bağlanması ilə bağlı şikayət edəcəyini də vurğulayıb: "Mənim mahnımı sildirməyə cəhd etsən sənin "YouTube" kanalını bağlatdıracağam. Onun-bunun populirləri oxuyub qoyursan, bəs camaat nə etsin? Aşıq Zülfiyyənin 10 mahnısını oxumusan. Müəllif hüququ ilə bağlı şikayət edib kanalını bağlatdıracağam. Ölkədə müğənni qoymamısan, hamının mahnısını oxuyursan, sənə olar, bizə yox?".

Sözügedən açıqlama sosial şəbəkələrdə g maraq doğurub və müzakirələrə səbəb olub.

# "İşləmək üçün dəfələrlə efirdən qurumlara müraciət etmişəm" - Eldaniz Məmmədov



***Müğənni Eldəniz Məmmədov işsizlikdən gileylənib.***

"Unikal" xəbər verir ki, bu barədə sənətçi "Xəzər Axşamı" verilişində danışıb. O, bir sıra qurumlara işlə bağlı müraciətlər etdiyini, lakin nəticə əldə edə bilmədiyini bildirib:

"Insan hansı zirvəyə qalxırsa, daha da yüksəyini istəyir. Mən sənətdə bir çox işlər görmüşəm. Fəxr edirəm ki, əsl Azərbaycan musiqisini qoruyub saxlamışam və ifa edirəm. Dəfələrlə efirdən də qurumlara müraciət etmişəm. İşləmək istəyirəm, evdə oturmaqla, konsert verməklə, toya getməklə keçmir belə şeylər. Ali təhsilim var, konservatoriyanı bitirmişəm. Müxtəlif yerlər var ki, orada çalışa bilərəm. Dəfələrlə müraciət etmişəm, amma xeyri yoxdur. Pedaqoq kimi də çalışa bilərəm, amma magistr diplomum yoxdur. Dəfələrlə imtahan vermişəm, qəbul ola bilməmişəm. Amma digər universitetlər, kolleclər var ki, orada çalışa bilərəm. Böyük konsert salonlarının ansamblları var, orada da işləyə bilərəm. Həmin müəssisələrin konsertlərində ifa edirəm, amma özüm orada çalışmıram. Ən çətin bəstəkar əsərlərini ifa etmək lazım olanda mənə deyirlər".

# Eldar "Avroviziya"dakı uğursuzluqların səbəbini açıqladı



***"Avroviziya 2011" qalibi Eldar Qasımov son illər Azərbaycanın müsabiqədə uğursuz çıxış etməsinə münasibət bildirib.***

Axşam.az xəbər verir ki, müğənni "Künc-bucaq" layihəsində qonaq olarkən təmsilçilərimizin son dörd ildə final mərhələsinə vəsiqə qazana bilməməsindən danışıb. Eldar bildirib ki, problemin səbəbini axtarmaq əvəzinə, müsabiqəyə yanaşmanı dəyişmək lazımdır:

"Səbəbi axtarmaq lazım deyil. Düşünürəm ki, başqa cür yanaşmaq lazımdır. Seçimləri başqa formada etməliyik. Xaricdən müəlliflər çağırmaq lazımdır. Bizim müəlliflə birlikdə mahnı yazsınlar. Yaxşı ifaçı tapıb ona bəstə təqdim etməlidirlər. Yanaşmanı dəyişib, düzgün yol tapmalıdırlar".

Müğənni vurğulayıb ki, müasir dövrdə müsabiqədə uğur qazanmaq üçün təkcə səhnə performansı kifayət etmir:

"İndi performans deyil, həm ünsiyyət, həm piar, həm də nüfuzunu göstərmək bacarığıdır. Formatı dəyişsək, maraqlı nəticəyə gələ bilərik".

# Xalq artistləri efirdə ağladılar



***Xalq artistləri Gülyaz Məmmədova və Gülyanaq Məmmədova "Günə uğurla" verilişində qonaq olublar.***

Gülyanaq Məmmədova bacısından danışarkən göz yaşlarına hakim ola bilməyib.

"Gülyaz hər zaman mənim zəhmətimi çəkib. Həmişə deyirəm ki, bir gün biz də bu dünyadan gedəcəyik. Heç vaxt ayrılmadıq, orada da bizi ayırmasınlar. Hətta qəbirdaşına ikimizin şəklini cüt qoysunlar. Həyatdır, haqq dünyasıdır. Sevgi ilə yaşamalıyıq (bir-birini qucaqlayıb ağlayıblar)" deyə, kövrələn müğənni söyləyib. (Axşam.az)

# "Aktrisa botoks etdirməməlidir"



***Əməkdar artist Dilarə Əliyeva botokslardan danışıb.***

"Qonaqcanlı" verilişində yer alan aktrisa sənət adamlarının baxımlarından bəhs edib. O bildirib ki, aktrisa botoks etdirməməlidir:

"Hər şeydən qaydasında istifadə edilməlidir. Kosmetologiyanın botoks kimi möcüzəvi prosedurundan aktrisalar istifadə etməməlidir. Biri deyir ifadəni gözlər, biri deyir dodaqlar verir. Amma bu qaşlardır. Ona görə də heç bir aktrisa botoks proseduruna müraciət etməməlidir. Düzgün prosedurlar edəndə botoksa ehtiyac olmur".

# Beren Saat, Kenan Doğulu və bəzi məşhurlar saxlanıldı



***Türkiyədə məşhurları hədəf alan növbəti narkotik əməliyyatı keçirilib.***

"Unikal" Türkiyə mətbuatına istinadən xəbər verir ki, əməliyyat zamanı məşhur müğənni Kenan Doğulu və həyat yoldaşı aktrisa Beren Saat, eləcə də Kerimcan Durmaz və Berdan Mardini də daxil olmaqla 22 nəfər saxlanılıb.

Şübhəlilər dindirilmək üçün İstanbul Polis İdarəsinin Narkotiklə Mübarizə Şöbəsinə aparılıblar.

21_27 IYUl-QARA.qxd 6/11/2026 7:49 PM Page 3





## Bakıda iş saatları dəyişdirilir - Sıxlıq azalacaq

***”Bakıda tezliklə dəyişkən iş qrafikinə keçilə bilər. Belə ki, ”Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı”na əsasən dövlət orqanlarının, təhsil və tibb müəssisələrinin, habelə digər hüquqi və fiziki şəxslərin iş rejiminin dəyişkən iş qrafikinə əsasən təşkili nəzərdə tutulub. Proqrama görə, bu məhz 2026-cı ildə reallaşacaq”.***

”Unikal” xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, proqrama əsasən, dəyişkən iş qrafikinin tətbiqi ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, TƏBİB və Nəqliyyatı Əlaqələndirmə Şurası tərəfindən aparılan təhlillər yaxın zamanlarda tamamlanmalıdır: ”Bununla da, Nazirlər Kabineti tərəfindən təsdiq ediləcək siyahılara əsasən dəyişkən iş rejimi təşkil olunacaq. Bir çox inkişaf etmiş ölkələrdə, xüsusilə Avropada dəyişkən iş rejimi artıq tətbiq olunur və bu model konkret nəticələr verir. Təhlillər göstərir ki, fərqli işə başlama saatları nəqliyyat yüklənməsini bölüşdürür və səhər-axşam pik vaxtlarda sıxlığı azaldır.

Avropa təcrübəsi göstərir ki, dəyişkən iş qrafiki yol-nəqliyyat sıxlığını azaldır, ictimai nəqliyyatda yüklənməni bölüşdürür, işçi məhsuldarlığını artırır və şəhər infrastrukturuna düşən təzyiqi azaldır. Gözlənilir ki, 2026-cı ildə Azərbaycanda da dövlət proqramının tələblərinə uyğun olaraq fərqli sektorlarda iş saatlarının mərhələli şəkildə dəyişdirilməsi reallaşacaq. Bu modelə əsasən, bütün müəssisələr eyni saatda fəaliyyətə başlamayacaq və bu da nəqliyyat sıxlığına təsir göstərəcək. Təbii ki, dəyişkən iş qrafikinin tətbiqi nəqliyyat sıxlığını tam aradan qaldırmaq deyil, azaltmaq üçün tətbiq olunur. Nəqliyyatda sıxlığın aradan qaldırılması infrastrukturun genişləndirilməsi ilə yanaşı, oxşar digər dolayı tədbirlərin icrasından birbaşa asılıdır”.

## "Aqrar sahə haqqında" yeni qanun hazırlanacaq

***”Aqarar sahədə qanunvericiliyin sistemləşdirilməsi üçün yeni ”Aqrar sahə haqqında” yeni qanun hazırlanması nəzərdə tutulur”.***



”Unikal” xəbər verir ki, bunu Milli Məclisin Aqrar siyasət komitəsində keçirilən “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı”ndan irəli gələn vəzifələr barədə ictimai dinləmədə kənd təsərrüfatı naziri Məcnun Məmmədov deyib.

# İcra başçılarına böyük şok...

## Sahil Babayevdən anons: rayon rəhbərlərinin pulu tamam kəsilir - Bəs bundan sonra nə olacaq?

***“Strateji valyuta ehtiyatlarımız 88,4 milyard dollara çatıb. Regionların büdcədən asılılığı daha da azalıb. Cəmi bir rayona 1,5 milyon manat məbləğində dotasiya verilib”. Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirəyə çıxarılan “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat”ın müzakirəsi zamanı maliyyə naziri Sahil Babayev deyib.***

Nazir bildirib ki, xərclər səmərəli və ünvanlı, müvafiq ehtiyaclara uyğun icra olunub. Onun sözlərinə görə, dövlət büdcəsi profisitlə icra edilib.

Bəs regionların büdcədən asılılığının azalması nə ilə bağlıdır? İcra hakimiyyətlərinə dotasiya ayrılması onların işinə necə təsir edir?

Milli Məclisin üzvü Vüqar Bayramov musavat.com-a şərhində bildirib ki, icra hakimiyyətlərinin özlərini maliyyələşdirmə sisteminə keçməsi artıq bir neçə ildir genişləndirilir. Deputatın sözlərinə görə, bu, birbaşa rayonların özlərini öz daxili maliyyə mənbələri hesabına təmin etməsi ilə bağlıdır: “Rayonların maliyyə mənbələrində artımlar var, yerli büdcə də mövcuddur, bu da icra hakimiyyəti orqanlarına dövlət büdcəsindən dotasiya ayrılmasının zəruriliyini azaldıb.

Müəyyən infrastruktur layihələri dövlət büdcəsi hesabına maliyyələşdirilir. Bu, birbaşa ayrılan vəsaitlərdir. Amma son dövrlərdə yerli icra hakimiyyəti orqanlarının gəlir mənbələrinin artması, şaxələnməsi praktik olaraq, onların dövlət büdcəsindən ayrılan dotasiyaya tələbinin azalmasına gətirib çıxarıb. Bu da nəticədə büdcə vəsaitlərinə qənaət edilməsinə və yerli mənbələrdən daha çox vəsaitin əldə edilməsinə imkan yaradıb”.

Xatırlatmaq yerinə düşər ki, Azərbaycanda yerli icra hakimiyyətlərinin xərcləri və aparatlarının saxlanılması dövlət büdcəsi hesabına maliyyələşdirilir. Dövlət büdcəsindən hər il rayon icra hakimiyyəti aparatlarına, onların tabeliyindəki qurumlara (mənzil-kommunal təsərrüfatı, abadlıq idarələri və s.) vəsaitlər ayrılır, bu vəsaitlərin təyinatı və xərclənməsi ”Büdcə sistemi haqqında” Qanunla tənzimlənir. Sahil Babayevin dediklərindən də aydınlaşdığı kimi, son illərdə regionlarda yerli gəlir mənbələrinin artması nəticəsində icra hakimiyyətlərinin dövlət büdcəsindən dotasiya asılılığı tədricən azalır və bu prosesin miqyası getdikcə genişlənməkdədir.

Digər tərəfdən, reallıq ondan ibarətdir ki, uzun illər boyunca Azərbaycanda əksər icra başçıları üçün büdcə vəsaitləri daha çox korrupsiya predmetinə çevrilib. 2018-ci ildən sonra ard-arda xeyli icra başçısının həbsi zamanı da aydın şəkildə göründü ki, bir çox rayon rəhbərləri büdcə vəsaitlərini təyinatı üzrə xərcləmək əvəzinə şəxsi maraqlarına “uyğunlaşdırmağa” üstünlük veriblər. Elə Hesablama Palatasının müxtəlif vaxtlarda ayrı-ayrı rayon, şəhər icra hakimiyyətlərində apardığı auditlər zamanı da bu cür yeyinti, mənimsəmə halları dəfələrlə ortaya çıxarılıb.

İndi isə proses fərqli istiqamətdə gedir: rayonların büdcədən asılılığının azalması ilə faktiki olaraq icra başçıları üçün “asan yem” sayılan pullar kəsilir.

Hərçənd, mövzu ilə bağlı danışan başqa bir iqtisadçı ekspertin - Əli Cabbarovun məsələyə baxışında fərqli məqamlar da var. O, “Nokomment.az” saytına açıqlamasında qeyd edib ki, regionların mərkəzi büdcə dotasiyalarından imtina edərək özünü maliyyələşdirmə sisteminə keçməsi kağız üzərində böyük islahat kimi görünsə də, yerli icra strukturlarının idarəetmə fəlsəfəsində kəskin yanaşma dəyişiklikləri tələb edir: ”Maliyyə nazirinin elan etdiyi bu mənzərə, yəni ölkədə cəmi bir rayonun dotasiya alması, dövlətin uzun illərdir yerli vergi və rüsumların toplanması, sahibkarlığın regional inkişafı istiqamətində tətbiq etdiyi rəqəmsal və inzibati nəzarət mexanizminin nəticəsidir. Bu günədək icra başçıları mərkəzdən gələn hazır dotasiya və vəsaitləri xərcləməyə adət etmişdilər və bu, regionlarda iqtisadi fəallığı dondururdu. İndi mərkəzi pul kəsildiyi üçün icra hakimiyyətləri öz fəaliyyətlərini davam etdirmək, yerli infrastrukturu saxlamaq və maaşları ödəmək üçün öz rayonlarında sahibkarlıq mühitini canlandırmağa, daxili istehsalı artırmağa və gizli iqtisadiyyatı leqallaşdıraraq vergi yığımlarını təmin etməyə məcandırlar”.



Ekspertin sözlərinə görə, dotasiyaların dayandırılması icra hakimiyyətlərinin büdcə intizamını gücləndirəcək, lakin yerli menecerlik qabiliyyəti zəif olan icra başçıları üçün ciddi çətinliklər yaradacaq. Səbəb sadədir: yeni reallıq icra başçılarından klassik inzibatçı statusundan çıxıb modern iqtisadi menecer və investor cəlb edən rəhbər kimi çıxış etməyi tələb edir. Əgər bir rayonun icra başçısı öz ərazisində biznes subyektlərinə süni maneələr yaradacaqsa, yeni iş yerlərinin açılmasına mane olacaqsa, həmin rayonun daxili büdcəsi dərhal kəsir verəcək və yerli layihələr iflasa uğrayacaq. Çünki artıq mərkəz onların yerli uğursuzluqlarını dotasiya ilə örtməyəcək. Dövlətin 88,4 milyard dollarlıq nəhəng valyuta ehtiyatının olması maliyyə təhlükəsizliyimizin sığortasıdır, lakin regionların öz ayaqları üzərində durması bütövlükdə qeyri-neft sektorunun inkişafı üçün strateji şərtdir. Bu səbəbdən dotasiyasız idarəetmə modeli icra hakimiyyətlərinin fəaliyyətini tam şəffaflaşdırmalı, onları yerli biznesə tərəfdaşlığa sövq etməli və səmərəsiz xərcləmələrə birdəfəlik son qoymalıdır.

Bir sözlə, görünən odur ki, büdcədən ayrılan böyük pullar səbəbindən icra başçısı postuna böyük maraq vardısa, getdikcə mənzərə dəyişəcək: hər hansı məmur postuna sırf korrupsiya məqsədilə can atanların sırası seyrələcək, bu posta yeni dəyər yaratmağa həvəsli kadrlar can atmağa başlayacaqlar...

***Sənan Mirzə***

21_27 IYUl-QARA.qxd 6/11/2026 7:49 PM Page 4



# Paşinyanın iç üzü ortaya çıxır - Başkəndi xəritəyə qatdı

***Ermənistanda növbədənkənar parlament seçkilərindən sonra siyasi qüvvələr hələ yekun nəticələrin tam rəsmiləşdirilməsini gözləsələr də, hakimiyyət artıq növbəti mərhələnin - yeni parlamentin və hökumətin formalaşdırılmasının hazırlıqlarına başlayıb.***

Bu isə onu göstərir ki, Baş nazir Nikol Paşinyan və onun rəhbərlik etdiyi "Vətəndaş Müqaviləsi" partiyası hakimiyyətini uzunmüddətli siyasi strategiyaya çevirmək niyyətindədir.

Məlumata görə, parlamentin 8-ci çağırışının səlahiyyətlərinin son günü 2 avqusta təyin edilib və həmin gün konstitusiya tələbinə uyğun olaraq yeni parlamentin ilk iclası çağırılacaq. Parlamentin ilk iclaslarında spiker və vitse-spikerlərin seçilməsi, komitələrin formalaşdırılması və daha sonra baş nazirin təsdiqlənməsi prosesi həyata keçiriləcək. Ardınca Paşinyan yeni hökumət kabinetini təqdim edəcək və ölkənin növbəti illər üçün siyasi kursunu müəyyənləşdirəcək.



Lakin əsas sual Ermənistan daxilindəki texniki hakimiyyət bölgüsü deyil. Əsas məsələ Paşinyanın növbəti dövrdə hansı geosiyasi xətti seçəcəyi və bu xəttin region üçün hansı nəticələr doğuracağıdır.

Son illər Ermənistan-Rusiya münasibətlərində müşahidə olunan gərginlik təsadüfi proses deyil. 2020-ci il müharibəsindən sonra İrəvanda formalaşan qənaət ondan ibarətdir ki, Rusiya Ermənistanın təhlükəsizlik gözləntilərini tam təmin edə bilməyib.

Paşinyan hakimiyyəti Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) fəaliyyətini açıq şəkildə tənqid edib, təşkilatın tədbirlərində iştirakını minimuma endirib və Qərblə siyasi dialoqu genişləndirib. Ermənistanın Avropa İttifaqı ilə münasibətlərinin sürətlə inkişaf etməsi də məhz bu kursun tərkib hissəsidir.

Moskva da bu fonda İrəvanın KTMT-yə üzvlük haqqını iki ildir ödəmədiyini əsas gətirərək onun birlikdən xaric olunmasını istisna etmir.

Bununla belə, Ermənistanın Rusiyadan tam şəkildə qopması yaxın perspektivdə real görünmür. Ermənistan iqtisadiyyatının mühüm hissəsi hələ də Rusiya bazarından asılıdır. Enerji sektoru, bank sistemi, əmək miqrasiyası və ticarət əlaqələri Moskva ilə münasibətlərin tam şəkildə kəsilməsini çətinləşdirir.

Bu səbəbdən Paşinyan hökumətinin siyasəti daha çox "strateji uzaqlaşma", lakin "tam ayrılmama" modeli üzərində qurulacaq.

Paşinyanın Avropa İttifaqına yönəlməsi isə artıq taktiki deyil, strateji xarakter almağa başlayıb. Son illərdə Ermənistan Avropa institutları ilə əməkdaşlığı genişləndirib, hüquqi və siyasi islahatlar paketlərini gündəmə gətirib.

Lakin burada da ciddi məhdudiyyətlər mövcuddur: Ermənistanın Avropa İttifaqına üzvlüyü yaxın illərdə real deyil. Daha çox müşahidə edilən tendensiya siyasi yaxınlaşma, maliyyə dəstəyi və təhlükəsizlik əməkdaşlığının artırılmasıdır.

Paşinyan Qərbə inteqrasiya vasitəsilə həm daxili legitimliyini gücləndirməyə, həm də Rusiyadan asılılığı azaltmağa çalışır. Bununla yanaşı, o, Moskvanın sərt reaksiyasını doğurmamaq üçün müəyyən balans elementlərini qorumağa məcburdur.

Ermənistanın qarşısında duran ən vacib məsələlərdən biri Azərbaycanla münasibətlərin normallaşdırılmasıdır.

Müharibədən sonrakı reallıq göstərdi ki, Ermənistan əvvəlki status-kvonu bərpa etmək imkanına malik deyil. Qarabağ məsələsi Ermənistanın siyasi gündəmindən faktiki olaraq çıxıb və İrəvan artıq beynəlxalq səviyyədə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edir.

Paşinyan üçün Azərbaycanla sülh müqaviləsinin imzalanması sadəcə xarici siyasət deyil, həm də daxili siyasi sabitlik məsələsidir. Sülh sazişi Ermənistanın iqtisadi blokadadan çıxmasına, regional kommunikasiyaların açılmasına və investisiya imkanlarının genişlənməsinə şərait yarada bilər.Bununla yanaşı, Ermənistan daxilində revanşist qüvvələrin mövcudluğu və diaspor təşkilatlarının təzyiqləri Paşinyanın manevr imkanlarını məhdudlaşdırır.

Sülh prosesinin ən mühüm elementlərindən biri Ermənistan Konstitusiyasında dəyişikliklərin həyata keçirilməsidir. Mövcud əsas qanunda Azərbaycana qarşı ərazi iddialarına istinad kimi qiymətləndirilən müddəalar qalmaqdadır. Bakı məhz buna görə konstitusiya islahatlarını sülh müqaviləsinin vacib şərtlərindən biri hesab edir.

Paşinyan artıq bir neçə dəfə yeni konstitusiyanın hazırlanmasının vacibliyindən danışıb. Bu isə göstərir ki, Ermənistan rəhbərliyi daxili müqavimətə baxmayaraq, bu istiqamətdə addımlar atmağa hazırlaşır. Lakin referendum yolu ilə həyata keçiriləcək mümkün dəyişikliklər Paşinyan üçün həm siyasi risk, həm də ciddi legitimlik sınağı olacaq.

Bakıda və bir sıra Avropa paytaxtlarında Paşinyan hazırda praqmatik və sülhyönlü siyasətçi kimi qəbul edilir. Lakin onun siyasi bioqrafiyası bu imicin tam və dəyişməz olmadığını göstərir.

Bir zamanlar "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını verən, Şuşada nümayişkaranə tədbirlərdə iştirak edən eyni siyasətçi sonradan tam fərqli mövqedən çıxış etməyə başladı.

Bu dəyişiklik ideoloji transformasiyadan daha çox geosiyasi reallıqların diktəsi kimi görünür. 2020-ci il müharibəsi və sonrakı hadisələr Ermənistanın imkanlarını ciddi şəkildə məhdudlaşdırdı və İrəvanı yeni siyasətə məcbur etdi. Məhz buna görə Azərbaycan üçün əsas məsələ Paşinyanın bəyanatları deyil, yaratdığı institusional dəyişikliklərdir. Ermənistanın konstitusiyasının dəyişdirilməsi, sülh müqaviləsinin imzalanması və revanşist siyasətin hüquqi əsaslarının aradan qaldırılması konkret göstəricilər hesab olunur.

Lakin görünən odur ki, bir zamanlar Ermənistan xəritəsini əlində gəzdirərək xalqa tanıdan Baş nazir, indi yenidən seçildikdən sonra həmin xəritəyə Başkəndi də əlavə edib. Sələfləri kimi gücləndikcə iç üzü ortaya çıxan erməni lider, görünür, o qədər də sülhsevər deyil. Lakin əminliklə deyə bilərik ki, o, dəmir yumruğu da unutmayıb və unutmayacaq...

Ümumilikdə isə Paşinyanın yenidən hakimiyyətə gəlməsi Ermənistanın xarici siyasət kursunda ciddi dəyişiklik yaratmayacaq. Əksinə, son illərdə formalaşmış xətt daha sistemli şəkildə davam etdiriləcək. Bu xətt Rusiyadan mərhələli uzaqlaşmanı, Avropa ilə yaxınlaşmanı və Azərbaycanla münasibətlərin normallaşdırılmasını nəzərdə tutur. Lakin Ermənistanın tarixində xarici siyasi orientasiyaların dəyişməsi yeni hadisə deyil. Müxtəlif dövrlərdə İrəvan beynəlxalq mühitin dəyişməsindən istifadə edərək kursunu korrekte etməyə çalışıb. Bu baxımdan Paşinyanın hazırkı siyasətini yalnız şəxsi baxışlarla izah etmək düzgün olmaz.

Azərbaycan üçün əsas vəzifə Ermənistan rəhbərliyinin bəyanatlarına deyil, atdığı real addımlara diqqət yetirməkdir. Çünki regionda davamlı sülhün təminatçısı liderlərin dəyişən mövqeləri deyil, dövlətlərin üzərinə götürdüyü hüquqi və siyasi öhdəliklərdir.

***Ağarza Elçinoğlu***



## Mikayıl Cabbarov: "Qarabağ və Şərqi Zəngəzurda güzəştlərin müddəti uzadıla bilər"

***"Qarabağ və Şərqi Zəngəzurda güzəştlərin müddəti uzadıla bilər".***

"Unikal" xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov AZƏRTAC və İTV-yə müsahibəsində bildirib.

"Növbəti mərhələdə biz Böyük Qayıdışa dair İkinci Dövlət Proqramı çərçivəsində, bir az öncə qeyd etdiyim vergi, gömrük, sosial ödənişlər və kommunal bağlantılar üzrə güzəştləri nəzərdə tutaraq, güzəşt müddətlərinin uzadılmasını, yeni təşviq mexanizmlərinin tətbiqini, maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsini, o cümlədən kredit faizlərinin subsidiyalaşdırılması və digər alətləri, geoloji tədqiqatların davam etdirilməsini və insan kapitalının gücləndirilməsini əsas hədəflər kimi müəyyənləşdirəcəyik", - nazir bildirib.

## TRIPP-in tikintisinə nə vaxt başlanılacaq?

***"Hazırda müxtəlif tərəfdaşların iştirakı ilə TRIPP layihəsi çərçivəsində hazırlıq işləri aparılır".***



"Unikal" xəbər verir ki, bunu Ermənistanın Ərazi İdarəetmə və İnfrastruktur naziri David Xudatyan deyib.

Onun sözlərinə görə, tədqiqat və hazırlıq mərhələləri son mərhələdədir.

O xatırladıb ki, may və iyun ayında Ermənistan və ABŞ xarici işlər nazirləri müvafiq sənəd imzalayıblar.

"Əminəm ki, 2026-cı ilin ikinci yarısında, payız və ya qışa yaxın tikinti mərhələsinə keçəcəyik", - deyə Xudatyan qeyd edib.

***Gülayə Mecid***

## "Ümid edirəm ki, Putin məni təbrik edəcək" - Paşinyan

***Ermənistanın baş naziri Nikol Paşinyan Rusiya prezidenti Vladimir Putinin dəvəti ilə Moskvaya səfər edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Paşinyan keçirdiyi brifinqdə bildirib.

Rusiya liderinin onu niyə təbrik etmədiyi soruşulduqda, Paşinyan heç bir təbrik olmadığını bildirib və istehzalı şəkildə əlavə edib ki, "Ümid edirəm, edəcək",- deyib.

21_27 IYUI-QARA.qxd 6/11/2026 7:49 PM Page 5



# Hüseyn əl-Şeyx Mehriban Əliyevanı təbrik etdi



***Fələstin Dövlətinin vitse-prezidenti Hüseyn əl-Şeyx-dən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya məktub ünvanlayıb.***

"Unikal" xəbər verir ki, məktubda qeyd olunub:

"Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Fürsətdən istifadə edərək, Azərbaycanın Fələstin məsələsinə göstərdiyi prinsipial dəstəyə, həmçinin ölkələrimiz arasında qarşılıqlı hörmət, həmrəylik və əməkdaşlıq əsasında formalaşmış davamlı dostluq münasibətlərinə görə dərin minnətdarlığımı bildirirəm.

Qarşılıqlı maraqlarımıza və dost xalqlarımızın rifahına xidmət etmək məqsədilə ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsinə, həmçinin bütün sahələr üzrə əməkdaşlığın və əlaqələndirmənin genişləndirilməsinə sadiqliyimizi bir daha təsdiq edirik.

Zati-aliləri, Azərbaycan Respublikasına davamlı tərəqqi və firavanlıq arzulayır, Sizə ən yüksək ehtiramımı bildirirəm".

# Ərdoğan Paşinyanı təbrik etdi

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nikol Paşinyanı seçkilərdə qələbə münasibətilə təbrik edib.***



"Unikal" xəbər verir ki, bu barədə Ermənistan mətbuatı yazıb.

Qeyd olunur ki, Ərdoğan mesajında regionda uzunmüddətli sülh və sabitliyin bərqərar olması və bu istiqamətdə zəruri əməkdaşlığın təmin edilməsi barədə Ermənistan liderinin strateji baxışının uğurla həyata keçiriləcəyinə tam əminliyini ifadə edib.

***Gülayə Mecid***

# Hikmət Hacıyev Marek Estok ilə görüşdü



***Slovakiya Xarici İşlər Nazirliyinin (XİN) Avropa İttifaqı işləri üzrə dövlət katibi Marek Estok Azərbaycanda səfərdədir.***

"Unikal" xəbər verir ki, bu barədə dövlət katibi "X" hesabında bildirib.

Marek Estok Azərbaycana səfəri çərçivəsində Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşüb.

O, Hikmət Hacıyevlə Azərbaycanla Slovakiya arasında əməkdaşlıq və yeni müştərək layihələr barəsində açıq və müsbət müzakirələr apardığını qeyd edib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur
Sifariş 252.
Tiraj:2000

# İmtahan nəticələri bu tarixdə açıqlanacaq

***II və III ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanının nəticələri gələn həftə elan olunacaq.***

Bu barədə "Unikal"a DİM-dən məlumat verilib.

Qeyd edək ki, mayın 24-ü II və III ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib.

# Baş nazir məmurları topladı - Tapşırıqlar verdi

***İyunun 11-də Baş nazir Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın iclası keçirilib.***

"Unikal" xəbər verir ki, iclasın gündəliyində Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin təşkili ilə bağlı görülmüş işlər, həlli vacib infrastruktur məsələləri, strateji baxış və inkişaf perspektivləri, eləcə də Xidmət sektorunun iqtisadi artımda rolu və inkişaf potensialı, Xidmət sektorunda müəyyən edilmiş prioritet istiqamətlər və təkliflər və digər cari məsələlər ətraflı müzakirə olunub.



Gündəlikdə olan məsələlər üzrə Prezidentin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, iqtisadiyyat naziri Mikayıl Cabbarovun təqdimatları dinlənilib. Təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və Ələt Azad İqtisadi Zonasının İdarə Heyətinin sədri Valeh Ələsgərov çıxış ediblər.

İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla müvafiq qərarlar qəbul olunub və aidiyyəti qurumlara tapşırıqlar verilib.

# Anar Bayramova müavin təyin edildi

***Bahadur Məhərrəm oğlu Rzayev TƏBİB-in İcraçı direktorunun müavini təyin edilib.***

"Unikal" xəbər verir ki, B.Rzayev Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında menecment ixtisası üzrə bakalavr, İstanbul Universitetində təşkilatların idarəolunması üzrə magistr təhsili alıb. 2018-2019-cu illərdə Almaniyanın RWTH Aachen Universitetində liderlik və təşkilati səmərəliliyin artırılması mövzusunda elmi araşdırmalar aparıb.



Peşəkar fəaliyyəti ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyində departament rəhbəri vəzifəsində çalışıb, reabilitasiya xidmətlərinin təşkili, keyfiyyətə nəzarət və xidmətlərin idarə olunması istiqamətlərində fəaliyyət göstərib. Daha sonra həmin Agentliyin İdarə Heyəti sədrinin müşaviri vəzifəsində çalışıb.

Yeni təyinatından əvvəl o, TƏBİB-in İcraçı direktorunun müşaviri vəzifəsində fəaliyyət göstərib.

# Azərbaycandan Ermənistana 1 000 tona yaxın dizel yanacağı göndərilib

***Azərbaycandan Ermənistana göndərilən 984 ton dizel yanacağı "Azərbaycan Dəmir Yolları" QSC-nin Biləcəri stansiyasından yola salınıb.***

"Unikal" xəbər verir ki, 17 vaqon dizel yanacağı Böyük Kəsik stansiyası istiqamətində yola düşüb.

Yük Gürcüstan ərazisindən tranzit keçməklə Ermənistana çatdırılacaq.

İndiyədək Azərbaycandan Ermənistana 12 min tondan çox dizel, 979 ton Aİ-92 benzini və 2 955 ton Aİ-95 benzini ixrac olunub.

Xatırladaq ki, bu ölkəyə yanacaq ixracına isə 2025-ci dekabrın 18-də başlanılıb. Həmin gün Ermənistana 1 220 ton Aİ-95 markalı avtomobil yanacağı tədarük edilib.

Prezident İlham Əliyevin 2025-ci ilin oktyabrında verdiyi qərara əsasən, işğal dövründən bəri qüvvədə olan Azərbaycandan Ermənistana yüklərin tranziti ilə bağlı məhdudiyyətlər aradan qaldırıldıqdan sonra bu istiqamətdə daşımalar davam edir.



# Azərbaycanda bu məhsullar üçün subsidiya verilə bilər

***"Azərbaycanda 2027-ci ildən üzüm, xurma üçün məhsul subsidiyasının verilməsi nəzərdən keçiriləcək. Subsidiya mexanizmi də təkmilləşdiriləcək".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Aqrar siyasət komitəsində keçirilən "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələr barədə ictimai dinləmədə kənd təsərrüfatı naziri Məcnun Məmmədov deyib.

"Bu təkmilləşdirmə paralel şəkildə aparılacaq: fermerlərin maarifləndirməsi, elektronlaşmanın artırılması, torpaq xəritələrinin dürüstləşməsi ilə. Bu yolla biz subsidiyanı təkmilləşdirə biləcəyik. Əlbəttə ki, bu istiqamətdə əsas məqsəd məhsul subsidiyasına keçid etməkdir.



Əgər əvvəllər sadəcə tütün, şəkər çuğunduru və pambığa görə məhsul subsidiyası verilirdisə, keçən ildən buraya qarğıdalı və günəbaxan tumları daxil edilib. Bu ildən alma və nar məhsulları daxil olunub. 2027-ci ildən biz artıq üzüm, xurma və digər bitkiləri nəzərdən keçirəcəyik. Əlbəttə ki, bunun 100 % əzaqlı buğda da məhsul subsidiyası nümunələrindən biridir", - deyə nazir bildirib.

M.Məmmədov qeyd edib ki, məhsul subsidiyasına keçid birmənalı deyil: "Məhsul subsidiyasına keçid eyni zamanda nəzarəti də ehtiva etməlidir və bunun üçün də resurs tələb olunur. Süni intellektin və elektronlaşmanın bizə verəcəyi üstünlüklər sayəsində və eyni zamanda aqrar sahədə uçotun dürüstləşməsi hesabına inanırıq ki, məhsul subsidiyasına keçid mümkün qədər daha sürətli olacaq. Dayanıqlı fəaliyyətin icra olunması üçün subsidiya daha çox əməliyyata deyil, daha çox investisiyaya və uzunmüddətli təsərrüfata təşviq etməlidir. Uzunmüddətli təşviq etmək isə hansı yolla mümkündür? Hər hansı bir ərazidə, misal üçün, torpağın hər hansı bir xüsusiyyəti bu və ya digər bitkinin yetişdirilməsinə uzunmüddətdə risklidirsə, dövlətin oranın təşviq etməsini doğru hesab etmirik".

***Anar Kəlbiyev***

21_27 IYUl-QARA.qxd 6/11/2026 7:49 PM Page 6



# "Birinci Qarabağ müharibəsindən bu yana 4009 Azərbaycan vətəndaşı itkindir" - Hikmət Hacıyev

***Birinci Qarabağ müharibəsindən 30 ildən artıq vaxt keçməsinə baxmayaraq, 4 009 Azərbaycan vətəndaşı hələ də itkin düşmüş şəxs kimi qeydiyyatdadır.***



"Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" sosial media hesabında yazıb.

Onun sözlərinə görə, itkin düşmüş şəxslər məsələsi Ermənistan-Azərbaycan münaqişəsinin nəticəsində ən ağrılı humanitar problemlərdən biri olaraq qalır.

"Birinci Qarabağ müharibəsindən otuz ildən çox vaxt keçməsinə baxmayaraq, 4 009 Azərbaycan vətəndaşı hələ də itkin düşmüş kimi qeydiyyatda qalır. Minlərlə ailə qeyri-müəyyənlik içində yaşamağa davam edir, yaxınlarının taleyi və yerləşdiyi barədə məlumat almaq kimi fundamental hüquqdan məhrum edilir.

Davam edən axtarış, qalıqların çıxarılması və identifikasiya səyləri nəticəsində 889 insan qalığı ekshumasiya edilmiş, 313 itkin düşmüş şəxs DNT və məhkəmə-tibbi ekspertiza yolu ilə müəyyən edilmiş və 226 nəfərin qalıqları layiqli dəfn üçün ailələrinə təhvil verilmişdir".

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycanın azad olunmuş ərazilərində 32 kütləvi məzarlığın aşkar edilməsi humanitar faciənin miqyasının əlavə sübutu olmaqla yanaşı, itkin düşmüşlərin taleyinin aydınlaşdırılması istiqamətində əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğulayır.

"İtkin düşmüş şəxslər məsələsinin həlli yalnız humanitar öhdəlik deyil. Bu, ədalət, insan ləyaqəti, barışıq və davamlı sülh məsələsidir. Hər müəyyən edilmiş şəxs bir ailəni cavablara yaxınlaşdırır. Hər tapılan qalıq həqiqətin bərpasına və yaddaşın qorunmasına kömək edir".

# "Dayanıqlı su təminatı kənd təsərrüfatının inkişafı üçün həllediciidir" - Sədr müavini

***"Qlobal iqlim dəyişikliklərinin təsirlərinin artdığı, su resurslarına təzyiqin yüksəldiyi və qida təhlükəsizliyinin strateji əhəmiyyət qazandığı dövrdə dayanıqlı su təminatı kənd təsərrüfatının inkişafı üçün həlledici amillərdən biridir".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədr müavini İlham Bayramov Milli Məclisin Aqrar siyasət komitəsində keçirilən "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələr barədə ictimai dinləmədə deyib.

Sədr müavini bildirib ki, bu baxımdan Azərbaycan Dövləti Su Ehtiyatları Agentliyi tərəfindən yeni su ehtiyatlarının yaradılması, mövcud infrastrukturun yaxşılaşdırılması, su itkilərinin azaldılması, su uçotunun dəqiqləşdirilməsi və sudan qənaətli istifadənin təmin olunması istiqamətində fəaliyyət ardıcıl şəkildə davam etdirilir.

"Diqqətinizə çatdırmaq istərdim ki, ölkəmizin sosial-iqtisadi inkişafı fonunda həm içməli suya, həm də suvarma suyuna artan tələbatın ödənilməsi dövlət siyasətinin əsas prioritet istiqamətlərindən olub. Son 20 ildə ümumi tutumu 557 milyon kubmetr olan 5 yeni su anbarı tikilib, ümumi tutumu 37 milyon kubmetr olan 5 su anbarı təmir edilib. Eyni zamanda uzunluğu 4,7 min kilometrdən artıq olan suvarma kanalları yenidən qurulub, kollektor-drenaj şəbəkələri bərpa edilib və 4 minədək yeni subartezian quyusu qazılıb. Son dövrdə 26,8 milyon kubmetr tutuma malik Zabux su anbarı istifadəyə verilib, ümumi həcmi 44,3 milyon kubmetr olan Suqovuşan, Xaçınçay və Köndələnçay su anbarları əsaslı təmir edilərək istismara qaytarılıb. Bundan əlavə, 51,6 kilometr uzunluğunda magistral suvarma xətti çəkilib ki, həmin xətt vasitəsilə Qubadlı və Zəngilan rayonlarında



ümumilikdə 12 min hektar əkin sahəsinin su təminatı yaxşılaşdırılıb. Hazırda icra olunan ən mühüm strateji layihələrdən biri Şirvan suvarma kanalının tikintisidir. Kanalın uzunluğu 204,3 kilometr təşkil edir və təxminən 228 min hektar torpaq sahəsinin suvarılmasına xidmət göstərəcək. Bu layihə çərçivəsində 112 min hektar mövcud torpaq sahəsinin su təminatı yaxşılaşacaq və 106 min hektar yeni torpaq sahələri əkin dövriyyəsinə cəlb ediləcəkdir".

**Anar Kəlbiyev**

# Bakı metrosu yay qrafikinə keçir

***İyunun 16-dan Bakı metropoliteninin hərəkət cədvəli dəyişdiriləcək. Ali məktəblərdə və ümumtəhsil müəssisələrində müntəzəm tədris prosesinin başa çatması, həmçinin fəal istirahət dövrünün başlanması ilə əlaqədar sərnişin axınının azalmasını nəzərə alan Bakı Metropoliteni qatarların hərəkətini yay qrafikinə uyğun təşkil edəcək.***



Metropolitendən "Unikal"a verilən məlumata görə, dəyişiklikdən sonra "28 May?Əhmədli" sahəsində qatarlararası interval iş günləri pik saatlarda 2 dəqiqə 18 saniyə, şənbə günlərində 2 dəqiqə 30 saniyə, bazar günlərində isə 3 dəqiqə olacaq.

"Bakmil" və geri istiqamətdə hərəkət cədvəli Bakı metropoliteninin saytında dərc ediləcək.

Bənövşəyi xətt, həmçinin "Cəfər Cabbarlı?Xətai" və "Həzi Aslanov?Əhmədli" mənzillərində qatarların hərəkət cədvəli dəyişməyəcək.

Nəzarət tədbirləri və monitorinqlər davam etdiriləcək, zərurət yarandıqda xəttə buraxılması üçün ehtiyat qatarlar hazır saxlanılacaq.

Yay hərəkət qrafiki yeni tədris mövsümü başlanana qədər qüvvədə olacaq.

# AAYDA sədrinə iki müavin təyin edildi

***Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədrinə yeni müavinlər təyin edilib.***





"Unikal" "Report"a istinadən xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev müvafiq sərəncamlar imzalayıb.

Sərəncamlara əsasən, yeni sədr müavinləri Tural Mailov və Kamran Əzizovdur.

İndiyə qədər T.Mailov sədrin rəqəmsal transformasiya və beynəlxalq əməkdaşlıq məsələləri üzrə müşaviri, K.Əzizov isə Agentliyin Nəqliyyat infrastrukturunun tikintisi departamentinin müdiri vəzifəsində çalışıb.

# "Taxıl istehsalı bizim üçün strateji əhəmiyyətlidir" - Nazir

***"Azərbaycanda əkin sahəsinin 74 faizini taxıl və yem bitkiləri təşkil edir. Taxıl və yem bitkiləri Azərbaycan aqrar istehsalının cəmi 11 faizini yaradır. Biz daha çox torpaq resursumuzu daha az dəyər yaradan məhsullara ayırmışıq".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Aqrar siyasət komitəsində keçirilən "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələr barədə ictimai dinləmədə kənd təsərrüfatı naziri Məcnun Məmmədov deyib.

Nazir bildirib ki, taxıl istehsalı bizim üçün strateji əhəmiyyətlidir: "Bu bizim gündəlik həyat tərzimizin bir parçasıdır. Biz bundna imtina edə bilmərik. Bizim ərazilərimizin ciddi bir hissəsi taxıl və yem bitkilərinin istehsalına ayrılır".

**Anar Kəlbiyev**

# Azərbaycanda yeni bank yaradılsın - Deputatdan təklif



***Azərbaycanda yeni bankın yaradılması təklif edilir.***

"Unikal" xəbər verir ki, bunu deputat Əli Məsimli Milli Məclisin Aqrar siyasət komitəsinin "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələr mövzusunda keçirilən ictimai dinləmədə deyib.

Ə.Məsimli bildirib ki, kənd təsərrüfatı sahəsinin inkişafını dəstəkləmək üçün Aqrar Sənaye Bankının yaradılması və bu sahədə fəaliyyət göstərən insanlara daha aşağı faizlərlə kreditlərin verilməsi məqsədəuyğun olar.

# Cəbrayılda 122 hektarda aqropark yaradılacaq

***"İstiqamətlərimizdən biri istixana sahələrinin inkişafının genişləndirilməsidir. 500 hektar istixana sahələrinin artırılması hədəflənir".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Aqrar siyasət komitəsində keçirilən "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələr barədə ictimai dinləmədə Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Rəşad Hüseynov deyib.

"Bu istiqamətdə ilkin addımlarımız da var. Belə ki, Şərqi Zəngəzurda pilot istixana aqroparkının yaradılması ilə bağlı prosesə başlanılıb. Cəbrayılda təqribən 122 hektarda aqropark yaradılacaq", - deyə R.Hüseynov bildirib.

21_27 IYUl-QARA.qxd 6/11/2026 7:49 PM Page 7



# "Dövlətlə cəmiyyət arasında çox mühüm bir anlaşma və konsensus formalaşdı"

## Zahid Oruc: "Qanun layihəsi dövlətimizin ailələrin yanında olduğunu göstərən mühüm sosial qərardır"

***Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, deputat Zahid Oruc "Unikal"a müsahibə verib. O, uşaqların sosial şəbəkələrdə qeydiyyatı ilə bağlı yeni tələblərin müəyyənləşməsindən, 16 yaşından kiçik uşaqların sosial mediadan istifadəsinin qarşısının alınmasının vacibliyindən, layihə hazırlanarkən hansı ölkələrin təcrübəsinin öyrənilməsindən və başqa məsələlərdən danışıb.***

***-Zahid bəy, uşaqların sosial şəbəkələrdə qeydiyyatı ilə bağlı yeni tələblər müəyyənləşir. Layihəyə əsasən, 16 yaşı tamam olmamış şəxslərin platformada fərdi rəqəmsal hesablarının yaradılmasına yol verilməyəcək. Həmçinin, 16-18 yaş arası uşağın qanuni nümayəndəsinin fərdi rəqəmsal hesabın yaradılmasına razılığının alınması üçün bank kartı, elektron poçt ünvanı və mobil telefon nömrəsi üzrə məlumatlar təqdim ediləcək. Bu layihənin əhəmiyyətini necə qiymətləndirirsiniz?***

-Bütün inqilablar kimi, kommunikasiya bumu da özü ilə bərabər yeni çağırışlar gətirir. Hətta buxar maşınları yarananda da qatar nəqliyyatının təhlükələrini tənzimləmək üçün Britaniyada ilk qaydalar hazırlanmışdı və indi belə bir inam var ki, sənaye inqilabları bütün sferalarla yanaşı, birinci növbədə hüquq sistemlərini irəliyə aparır, yeni qanunların qəbuluna səbəb olur. Ona görə uzaq Avstraliyanın Qərb texnoloji nailiyyətlərinə öz milli təhlükəsizlik mənafelərindən yanaşması təqdirəlayiq hadisədir və genişlənən hərakata çevrildi. Azərbaycan nümunəsində ictimai gündəliyə çıxarılan yeni qanunvericilik təşəbbüsü uşaqların hüquqlarının qorunması istiqamətində müstəsna hadisədir. Çünki təkcə mənəvi, sosial deyil, eləcə də ailə institutunun təhlükəsizliyi və dayanıqlığının qorunması bütövlükdə bir xalqın varlıq və suverenlik məsələsidir. Dövlət rəqəmsal məkanda uşaqların, onların timsalında əhalimizin mənafelərini nəzərə alaraq problemə sistemli və hüquqi yanaşma ortaya qoydu. Ulu Öndər Heydər Əliyev deyirdi ki, "Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır". Gerçəkdən də Vətən müharibəsində təsdiqini tapan müdrik və uzaqgörən baxış azərbaycanlı ailə institutunun təməllərini təşkil edir. Müzakirəyə təqdim olunan qanun layihəsi həmin siyasətin rəqəmsal dövrə uyğun davamıdır. Komitə iclasından sonra cəmiyyətdə yaranan rezonans göstərdi ki, məsələ son dərəcə aktualdır və insanların sosial sifarişidir, gündəlik həyatı ilə birbaşa bağlıdır. Açığını desək, müəyyən qlobal korporasiyaların və onların təsir dairəsində olan müxtəlif kontent yaradıcı süni intellekt alqoritmlərinin dərhal güclü əks kampaniya aparacağını gözləyirdik. Dünyanın müxtəlif ölkələrində olduğu kimi, "senzura tətbiq olunur", "uşaqların hüquqları məhdudlaşdırılır", "hamını nəzarət altına almaq istəyirlər" kimi ittihamların səslənəcəyi proqnozlaşdırılırdı. Lakin tam əks mənzərə yarandı.

Valideyn birlikləri, müəllimlər, məktəb ictimaiyyəti, psixoloqlar, ekspertlər və vətəndaş cəmiyyəti nümayəndələri təşəbbüsə böyük dəstək verdilər. Dövlətlə cəmiyyət arasında çox mühüm bir anlaşma və konsensus formalaşdı. Böyük ictimai dəstək göstərdi ki, məsələ ideoloji və ya siyasi deyil. Başlıca məqsəd Azərbaycan ailəsinin gələcəyi, uşaqların təhlükəsizliyi və sağlam inkişafıdır. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, Azərbaycanın gələcəyi sağlam, savadlı və milli dəyərlərə bağlı gənc nəslin yetişməsindən asılıdır. Son illərdə təhsil, səhiyyə, gənclər siyasəti və rəqəmsal inkişaf sahələrində həyata keçirilən proqramlar bunu təsdiq edir. Qanun layihəsi dövlətimizin ailələrin yanında olduğunu göstərən mühüm sosial qərardır. Necə ki, siqaret, alkoqol, qumar və digər riskli sahələrdə yaş məhdudiyyəti tətbiq edilir, rəqəmsal məkanda da uşaqların təhlükəsizliyini təmin etmək üçün addım atılır.



***-Bu layihədə əsas diqqət 16 yaşdan kiçik uşaqlarla bağlıdır. Sizcə, 16 yaşından kiçik uşaqların sosial mediadan istifadəsinin qarşısını almaq niyə vacibdir?***

-Müasir dünyamızda sosial media sadəcə ünsiyyət vasitəsi deyil. O, insan diqqəti üzərində qurulmuş çoxmilyardlıq qlobal şəbəkə biznesidir, nəzarət və idarəetmə silahıdır. Rəqəmsal platformaların əsas məqsədi istifadəçinin diqqətini mümkün qədər uzun müddət özündə saxlamaqdır. Sonsuz sürüşdürmə, avtomatik video axını, davamlı bildirişlər və digər texnologiyalar təsadüfi deyil. Bunlar insan psixologiyasını platformaya bağlamaq üçün hazırlanmış mexanizmlərdir. Narkotik asılılıqla eyni zəncirin həlqələridir. 11876 uşağı əhatə edən JAMA Network tədqiqatı sosial media istifadəsinin artmasını depressiya simptomları ilə əlaqələndirir. Britaniya Psixologiya Cəmiyyətinin hesabatına görə, 2014-2022-ci illər arasında 11-16 yaş qrupunda özünə zərər vermə halları 52 faiz artıb. Qız uşaqları riskə oğlanlara nisbətən 2,3 dəfə daha çox məruz qalır. Yetkin insanla formalaşmaqda olan uşağın psixologiyası arasında böyük fərq var. Ona görə də dünyanın aparıcı ölkələri artıq məsələyə ictimai sağlamlıq, ailə siyasəti və milli təhlükəsizlik baxımından yanaşırlar. Keçmişdə onu silahlı ordularla edirdilər, indi onlayn məkan fərqli bir formasiyadır, sərhədsiz virtual dünyadır, yüz milyonlarla sakini var, gündəlik olaraq miqrasiya və emiqrasiya axınları ilə həmin şirkətlər qəbul etdikləri insanların üzərindən yüz milyardlarla dollar gəlir əldə edirlər. Lakin bir çox dövlətlər artıq ictimai etirazları dəyərləndirərək xüsusilə, müdafiəsiz təbəqəni - məhz uşaqları qorumağa çalışırlar. "Meta"nın 1,5 trilyon dollarlıq bazar dəyəri onlarla dövlətin ümumi daxili məhsulundan (ÜDM) dəfələrlə böyükdür. Söhbət sadəcə texnologiyadan deyil, dünyanın ən güclü iqtisadi və informasiya mərkəzlərindən biri ilə münasibətlərin hüquqi çərçivəyə salınmasından gedir. Dövlətlərin uşaqları qorumaq üçün xüsusi qanunlar qəbul etməsinin əsas səbəblərindən biri də məhz budur. Ulu Öndər həmçinin bildirirdi ki, "Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir". Sosial şəbəkələrin nəzarətsiz təsiri nəticəsində zəifləyən ailədaxili ünsiyyət texnoloji məsələ kimi qəbul edilə bilməz, daha çox mənəvi məsələdir. Bəzən eyni evdə yaşayan ailə üzvləri bir-biri ilə danışmaq əvəzinə ekranlarla ünsiyyət qururlar.

Sosial Tədqiqatlar Mərkəzinin 2025-ci ildə apardığı sorğuya görə, ölkəmizdə 10-17 yaş aralığındakı uşaqların 89.4 faizi smartfon istifadəçisidir. Onların 76.3 faizi gündəlik olaraq sosial media platformalarına daxil olur. Göründüyü kimi, yetərincə yüksək rəqəmdir. Gündəlik orta sosial media istifadə müddəti göstərilən yaş qrupunda 4 saat 12 dəqiqədir - yəni, bir uşağın oyaq qaldığı vaxtın 30 faizinə bərabərdir. Həmçinin, ölkəmizdə 12-15 yaş qrupundakı uşaqların 42.5 faizi gecə saat 23:00-dan 02:00-a qədər olan vaxtı telefonda keçirir. Gecə sosial media aktivliyi həm yuxu çatışmazlığına, həm də dərs uğursuzluğuna birbaşa təsir göstərir. Uşaqların 58.7 faizi ailəsi ilə birgə nahar zamanı masada oturarkən telefona baxır. Valideynlərin 67.3 faizi övladları ilə keyfiyyətli ünsiyyət və mənalı söhbətin 5 ildə 44 faiz azaldığını bildirib. Sosial media asılılığının ailə büdcəsinə birbaşa təsiri var. Yeniyetmələr tərəfindən edilən impulsiv alışlar - oyun içi satınalmalar, influencer reklamları ilə yönəldilən istehlak, abunəlik xidmətləri - ailə büdcəsindən xeyli vəsait aparır. 12-18 yaş qrupundakı gənclərin aylıq ortalama rəqəmsal xərcləri 40-70 manata, yəni, orta ailə büdcəsinin 6-12 faizinə bərabərdir. Komitə müzakirələrindən sonra bəzi dairələr iddia edirdilər ki, sosial media məhdudiyyətləri uşaqlarda aqressiya yaradacaq, onları cəmiyyətdən təcrid edəcək. Hətta müəyyən mənada insanları ölçülməmiş arqumentlərlə şantaj etməyə çalışırdılar. Lakin nəticələr tam fərqli oldu. Valideynlər, müəllimlər və psixoloqlar qanun layihəsinə dəstək verdilər. Çünki onlar hər gün eyni problemlərlə qarşılaşırlar: gecə saatlarınadək telefondan istifadə, diqqət pozuntuları, virtual bullinq, zərərli çağırışlar, psixoloji təzyiqlər, ailə ünsiyyətinin zəifləməsi və digər risklər. Biz texnologiyaya qarşı deyilik. Əksinə, Azərbaycanın gələcəyi rəqəmsal inkişafla sıx bağlıdır. Lakin sosial şəbəkələrdən asılılıqla rəqəmsal inkişaf eyni anlayış deyil. Bir uşağın süni intellekt öyrənməsi, proqramlaşdırma ilə məşğul olması, robot texnologiyalarına maraq göstərməsi ilə saatlarla sosial media lentində vaxt keçirməsi arasında çox böyük fərq var. Qanun uşaqları texnologiyadan deyil, manipulyativ alqoritmlərin təsirindən qorumaq məqsədi daşıyır.

***-Azərbaycanda bu qanun layihəsi hazırlanarkən əsasən hansı ölkələrin təcrübəsindən istifadə edilib?***

-Layihə hazırlanarkən Avstraliya, Fransa, İspaniya, Böyük Britaniya, ABŞ və bir sıra digər ölkələrin təcrübələri geniş şəkildə öyrənilib. Avstraliya 16 yaşdan uşaqlara sosial media məhdudiyyəti tətbiq edib. Fransa valideyn razılığı mexanizmini gücləndirib. İspaniya uşaqların onlayn təhlükəsizliyi sahəsində yeni hüquqi mexanizmlər yaradıb. Böyük Britaniya isə texnologiya şirkətlərinə uşaqların mənafeyini qorumaqla bağlı ciddi öhdəliklər qoyub. Önə çıxan ölkələrdən əldə olunan ilkin nəticələr diqqətəlayiqdir. Uşaqların sosial mediada keçirdiyi vaxtın azalması, yuxu keyfiyyətinin yaxşılaşması, ailədaxili ünsiyyətin artması və psixoloji rifah göstəricilərinin yüksəlməsi müşahidə olunur. Ən azı 30 fazilik müsbət təsirlər əldə olunub. Dünyanın müxtəlif siyasi sistemlərinə malik ölkələrində sosial mediaya yaş senzi ətrafında oxşar yanaşmalar güclənir. Çünki məsələ ideoloji xarakter daşımır, uşaqların müdafiəsini hədəfləyir. Azərbaycan da beynəlxalq təcrübəni öyrənərək milli model formalaşdırır. Hətta hesab edirik ki, ölkəmiz MDB məkanında qabaqcıl dövlətlərdən birinə çevrilə bilər. Çünki rəqəmsal təhlükəsizlik XXI əsrin ən mühüm sosial siyasət istiqamətlərindən biridir.

***-Komitə iclasında bildirildi ki, illərlə internetə öyrəşmiş uşağın əlindən onu alanda aqressiya və təşviş yarana bilər. Belə olan halda həmin boşluğu necə doldurmaq olar?***

-Əslində sual qanun layihəsinin ən vacib hissəsinə toxunur. Çünki məqsəd məhdudiyyətdən çox, uşağın həyatını daha sağlam və dəyərli məzmunla zənginləşdirməkdir. Doğrudur, uzun müddət sosial media və oyun asılılığı formalaşan bəzi uşaqlarda ilk mərhələdə narahatlıq və müqavimət yarana bilər. Lakin beynəlxalq təcrübə göstərir ki, müəyyən adaptasiya dövründən sonra uşaqların emosional vəziyyəti yaxşılaşır, yuxu rejimi normallaşır, diqqət qabiliyyəti artır və sosial münasibətlər güclənir. Burada əsas məsələ boşluq yaratmağa yox, həmin vaxtı düzgün məzmunla doldurmağa xidmət edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət proqramlarında gənc nəslin sağlam inkişafı, idmanla məşğul olması, vətənpərvərlik ruhunda yetişməsi və müasir biliklərə yiyələnməsi prioritet istiqamətlər kimi müəyyən olunub. Ölkə başçısının çağırışında məktəblər, idman və yaradıcılıq mərkəzləri, texnoparklar, innovasiya və elm layihələri daha böyük rol oynayacaq. Biz sosial medianı təkcə istehlak etməyi düşünmürük, daha çox texnologiyanı yaradan nəsil formalaşdırmaq istəyirik. Ulu Öndər Heydər Əliyev deyirdi ki, "Gənclər bizim gələcəyimizdir. Müstəqil Azərbaycanın gələcəyi gənclərin əlindədir". Vətən müharibəsində Zəfər qazanan bir xalq üçün həmin prinsip öz aktuallığını daha da artırıb. Komitə müzakirələrindən sonra yaranan ictimai həmrəylik göstərdi ki, Azərbaycan cəmiyyəti məsuliyyəti təkcə dövlətin üzərinə qoymur. Valideynlər, müəllimlər, məktəblər, ictimai institutlar və vətəndaş cəmiyyəti də virtual təhlükəsizliyimizi coğrafi və mavi vətən kimi qorumağa hazırdır. Ona görə də məqsəd uşağın əlindən telefonu almaq yox, onun həyatını kitab, elm, idman, yaradıcılıq, ailə ünsiyyəti və real sosial münasibətlərlə zənginləşdirməkdir. Əgər biz buna nail olsaq, müzakirə təkcə bir qanundan getməyəcək. Söhbət Azərbaycanın gələcəyini formalaşdıracaq daha sağlam, qabaqcıl elmi biliklərə yiyələnən və vətənpərvər nəslin yetişməsindən gedəcək. Zəfər nəsli yetişdirmək üçün mütləq uşaqları və gəncliyi kiber məkanda qorumalıyıq.

***Anar Kəlbiyev***

21_27 IYUl-QARA.qxd 6/11/2026 7:49 PM Page 8



# Ölkədə qiymətlər yenidən kəllə-çarxa qalxdı

## Marketlərdə kəskin bahalaşan məhsulların siyahısı açıqlandı - Mövsümi meyvə-tərəvəzləri almaq da lüksə çevrilir

***Son günlər ölkə üzrə bəzi mağazalarda əsas istehlak məhsullarının qiymətlərində artım müşahidə olunur. Xüsusilə şokolad, kərə yağı, duru yağlar, məişət salfetləri kimi gündəlik istifadə olunan məhsullarda qiymət dəyişikliyi var.***

Bəzi məhsullar əvvəlki qiymətindən xeyli yüksək "standart qiymət"lə satışa çıxarılır, daha sonra isə endirim tətbiq edilərək qiymətlərin aşağı salındığı göstərilir. Lakin nəticədə endirimli qiymətin belə əvvəlki real satış qiymətindən yüksək olduğu üzə çıxır.

**Şokolad məhsulları:**

Alpen Gold: əvvəl 2.20 AZN olan qiymət 4.20 AZN-ə qədər yüksəlib. Hazırda endirimlə 2.60 AZN-ə təklif edilir;



Milka: əvvəl 3.20 AZN olan qiymət 5.50 AZN göstərilir. Endirimli satış qiyməti isə 3.40 AZN-dir.

**Kərə yağı:**

Anchor: əvvəl 19.00-21.00 AZN olan kilo qiyməti hazırda 24.95 AZN-dir. Endirimli qiymət 22.95 AZN göstərilir.

French Cow: əvvəl 20.00-22.00 AZN aralığında olan qiymət 28.90 AZN-ə qalxıb. Endirimlə 24.19 AZN-ə təklif olunur.

President: əvvəl 24-26 AZN olan qiymət 37.69 AZN-ə yüksəlib, endirimli satış isə 34.69 AZN-dir.

Azərsüd: əvvəl 19.00 AZN olan qiymət 23.50 AZN-ə qədər artıb.

**Duru yağlar:**

Zeytun yağı (Zeytun Bağları, 1 litr): əvvəl 15 AZN olan qiymət 19.19 AZN-dir. Endirimli satış qiyməti isə 17-18 AZN aralığında dəyişir.

**Salfetka və məişət məhsulları:**

3 qat, 6 rulon "Aura" mətbəx dəsmalı: əvvəl 9-10 AZN olan qiymət hazırda 14.19 AZN-dir. Endirimlə 10-11 AZN-ə satılır.

"Selpak" mətbəx salfeti (6 rulon): əvvəl 7-8 AZN olan qiymət 16.89 AZN-ə yüksəlib. Endirimli qiymət isə 9.99 AZN-dir.

Qeyd edək ki, endirimli qiymətlər hər zaman tətbiq olunmur və bəzi hallarda məhsullar yalnız "əsas qiymət"lə satışa çıxarılır (musavat.com).

Digər tərəfdən, bazarda və marketlərdə mövsümü meyvələr göz oxşasa da, onların da qiymətləri cib yandırır. Satıcıların sözlərinə görə, qiymətlər keçən ilə nisbətən bir az yüksəkdir. Misal üçün, gilasın kilosu 4-5 manatdan 14 manata, çiyələyin kilosu isə 3 manatdan 6 manata kimi dəyişir. Məsələ təkcə bununla yekunlaşmır. Bölgələrdə fermerlər satıcıların məhsulu onlardan qat-qar ucuz istədiklərini bildirirlər.

İyun ayının ilk ongünlüyü arxada qalsa da, hazırda bazarlarda alça, pomidor, tənək yarpağı və digər mövsümi məhsulların qiymətinin yüksək qalması istehlakçıların narazılığına səbəb olur. Adətən yazın sonu və yayın əvvəlində bu məhsulların bazara çıxışı artdıqca qiymətlərin enəcəyi gözlənilsə də, bu il vəziyyət fərqlidir. "Cebhe.info" yazır ki, həm hava şəraiti, həm istehsal xərcləri, həm də bazara məhsul çıxışının gözlənilən səviyyəyə çatmaması qiymətlərə təsir edən əsas amillər sırasındadır.

Bəzi ekspertlər obyektiv səbəblərlə yanaşı, subyektiv amillərin də hətta mövsümi meyvə-tərəvəzlərin belə həddindən artıq bahalaşmasında əsas rol oynadığı qənaətindədir. "Hava şəraitinin bu bahalaşmada rolu danılmazdır, ancaq unutmayaq ki, artıq bir neçə ildir mövsümi meyvə-tərəvəzlərin qiyməti əlçatan olmamağa başlayıb. Bu, əlaqədar dövlət qurumlarını ciddi düşündürməlidir. Camaat yayı gözləyir ki, heç olmasa, ilin bu fəslində meyvə-tərəvəzdən genbol istifadə etsin, ancaq get-gedə bu da mümkünsüzə çevrilir. Sadəcə hava şəraitini əsas gətirib qiymət artımını adiləşdirmək olmaz. Hökumət iqtisadi fəaliyyəti artırmaq üçün real sahibkarlığa dəstək verməlidir. Regionlarda və kəndlərdə yaşayan fermerlərin ucuz və uzunmüddətli resurslara çıxışını təmin etməlidir. Müxtəlif güzəştlərlə insanların pay torpaqlarını becərməsinə şərait yaradılmalıdır. Ancaq o zaman ölkədə məhsul bolluğu yaranar və qiymətlər də ucuzlaşar" - "Unikal"a açıqlamasında kənd təsərrüfatı mütəxəssislərindən biri deyib.

Beləliklə, ümumi mənzərə kifayət qədər narahatlıq doğurur: istər marketlərdə, istər bazarlarda ən müxtəlif məhsulların bahalaşması artıq normaya çevrilib. Sadə vətəndaşların gəlirlərində elə də kəskin artım olmadığı halda qiymətlər artıq nəinki bir-iki il öncəyə, hətta bir neçə ay əvvələ nəzərən kəskin yüksəlir. Və əksər ekspertlər bu prosesə yalnız obyektiv amillərin pəncərəsindən baxmağı yanlış sayırlar. Onların fikrincə, genişmiqyaslı bahalaşmada digər faktorlar - subyektiv, süni amillər, məsələn, inhisarçılıq, məmur iqtisadiyyatı kimi nüanslar da diqqətdən qaçmamalıdır. Əks təqdirdə, bahalaşma yalnız iqtisadi bir hadisə olmaqdan çıxıb vətəndaşa qarşı faktiki olaraq məqsədli, düşünülmüş qiymət soyğunçuluğu kimi başa düşülməyə başlanacaq...

***Sənan Mirzə***



# Məhərrəm ayı başlayır - Bu tarixdən

***Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurası və səlahiyyətli nümayəndələri Məhərrəm ayının başlanması ilə əlaqədar ölkə müsəlmanlarına müraciət edib.***

Bu barədə "Unikal"a QMİ-dən məlumat verilib. Bildirilib ki, Məhərrəm ayının 1-i Türk Dövlətləri Təşkilatı Müsəlman Dini İdarə rəhbərləri Şurasının Fətva şöbəsinin tərtib etdiyi təqvimə, həmçinin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Şamaxı Astrofizika Rəsədxanasının hesablamalarına əsasən, Miladi təqvimlə 16 iyun tarixinə, Aşura isə 25 iyun tarixinə təsadüf edəcək.

"Qazılar Şurası olaraq dindarlarımıza xatırlatmaq istərdik ki, Məhərrəm və Səfər aylarında 60 gün ərzində keçirilən təziyə mərasimləri, xüsusilə Tasua və Aşura əzadarlığı zamanı müxtəlif alətlərlə bədənə xəsarət yetirmək, qan çıxarmaq, qurşağadək soyunaraq sinə vurmaq və s. dinimizə görə qəbuledilməzdir. Həmçinin QMİ Qazılar Şurası yerlərdəki nümayəndələrinin nəzərinə çatdırır ki, qazılar və imamlar AR "Dini etiqad azadlığı haqqında" Qanunun müddəalarına riayət edərək dini mərasimləri məscid, ziyarətgah və onlara aid ərazilərdə keçirsinlər. Azərbaycan qanunlarına əsasən, təziyə mərasimləri zamanı milli-mənəvi dəyərlərimizə və dövlətçilik ənənələrimizə xələl gətirən şüarların səsləndirilməsi, dövlət simvollarına uyğun olmayan atributların istifadəsi, küçə yürüşləri və ictimai asayişin pozulması icazəli deyildir. Xüsusilə qeyd etmək istərdik ki, Azərbaycan din xadimləri tərəfindən məscidlərdə Vətən sevgisini, milli dəyərlərə sədaqəti, şərəf və ləyaqəti ehtiva edən moizələr və xütbələr oxunmalıdır. Məhərrəmlik dönəmində ibadət və dualarımızda Kərbəla şəhidləri ilə yanaşı Birinci və İkinci Qarabağ müharibəsində Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman övladlarımızın, həmçinin 20 yanvar və Xocalı soyqırımı qurbanlarının əziz xatirəsini yad etməklə şəhidlərimizə rəhmət, qazilərimizə şəfalar diləmək bizim vəfa borcumuzdur. Qeyd olunan tövsiyələrin bölgələrdəki din xadimlərinin dindarlara çatdırması vacibdir, qazılar və səlahiyyətli nümayəndələr öz bölgə məscidlərində görülən tədbirlər barədə tam hesabatlarını Qafqaz Müsəlmanları İdarəsinə təqdim etməlidirlər.

Məhərrəmlik dönəmində önəmli tədbirlərdən biri - Kərbəla şəhidlərinin xatirəsinə qanvermə aksiyası müqəddəs dinimizə layiq olan ən münasib əzadarlıq nümunəsi kimi bilavasitə Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə reallaşan və xalq tərəfindən təqdir edilən hadisədir. Ümidvarıq ki, inşaAllah, dindarlarımız bu il də humanist ənənəni davam etdirərək, qan bankının paytaxtda və bölgələrdəki filiallarında, habelə digər səhiyyə ocaqlarında Allah rizası üçün İmam Hüseyn (ə) və əziz şəhidlərin xatirinə ehsan niyyəti ilə qan verəcək, minlərlə xəstə insana, irsi xəstəliklərdən əziyyət çəkən uşaqların şəfa tapmasına yardımçı olacaqlar. Həmin məkanların ünvanları Qafqaz Müsəlmanları İdarəsinin rəsmi veb səhifəsində (www.qafqazislam.com) yerləşdiriləcək", - müraciətdə deyilir.

21_27 IYUl-QARA.qxd 6/11/2026 7:49 PM Page 9





## "Azərbaycan ABŞ-nin tərəfdaşı olmağa hazırdır" - Nazirin müşaviri

***Azərbaycan texnologiya, innovasiya və biliklərə əsaslanan yeni iqtisadi inkişaf mərhələsinə qədəm qoyur.***

"Unikal" xəbər verir ki, bu fikri iqtisadiyyat nazirinin müşaviri Hüseyn Hüseynov Bakıda keçirilən "TECHNOVATION: Davamlı İqtisadi Transformasiya üçün Elm və İnnovasiya" konfransında çıxışı zamanı deyib.

Hüseyn Hüseynov bildirib ki, ABŞ son 30 ildən artıq müddətdə Azərbaycanın ən etibarlı iqtisadi tərəfdaşlarından biri olub.

"İki ölkə arasında əməkdaşlıq əvvəlcə enerji sahəsində formalaşıb, hazırda isə innovasiya, texnologiya və rəqəmsal transformasiya istiqamətlərində inkişaf edir. Ötən həftə keçirilən Azərbaycan-ABŞ İqtisadi Dialoqu iki ölkə arasında əməkdaşlığın yeni imkanlarını ortaya qoyub. Enerji və kritik minerallar sahəsində əməkdaşlıqla yanaşı, yüksəkməhsuldar hesablama sistemləri, süni intellekt infrastrukturu, bulud texnologiyaları və rəqəmsal innovasiyalar istiqamətində də tərəfdaşlığın yeni mərhələsi formalaşır. "Dell Technologies", "Oracle", "Microsoft", "Amazon" və digər beynəlxalq şirkətlərlə əməkdaşlıq Azərbaycan-ABŞ münasibətlərinin ənənəvi investisiya tərəfdaşlığından strateji texnoloji əməkdaşlığa keçid etdiyini göstərir. Bu təşəbbüslər birlikdə daha yüksəkməhsuldarlıq yaradan, keyfiyyətli iş yerləri formalaşdıran, investisiyaları cəlb edən və qlobal rəqabət qabiliyyətini artıran müasir rəqəmsal iqtisadiyyatın əsasını təşkil edir", - deyə H.Hüseynov bildirib.

Hüseyn Hüseynov əlavə edib ki, Azərbaycan rəqəmsal transformasiyanın biznes üçün real nəticələr verməsinə xüsusi önəm verir: "Bu məqsədlə yerli müəssisələrin qabaqcıl texnologiyaları tətbiq etməsi, istehsal proseslərini modernləşdirməsi və əməliyyat səmərəliliyini artırması istiqamətində təşəbbüslər dəstəklənir. Azərbaycanın ilk rəqəmsal iqtisadi zonası olan "Digital Silk Way" layihəsini innovasiyaların sənaye islahatlarına çevrilməsinin uğurlu nümunəsi kimi dəyərləndirib. İnvestorlar və tərəfdaşlar üçün sabit və proqnozlaşdırılan biznes mühiti, əlverişli coğrafi mövqe, enerji resursları və islahatlara əsaslanan inkişaf strategiyası təklif edilir. Azərbaycan gələcəyin sənayelərinin, texnologiyalarının və imkanlarının formalaşdırılmasında sizin tərəfdaşınız olmağa hazırdır", - deyə H.Hüseynov beynəlxalq biznes ictimaiyyətinə müraciət edib.

# Azərbaycan səhiyyəsində növbəti qalmaqal

## Təcili tibbi yardım həkimi "açdı sandığı"... - TƏBİB-in və Səhiyyə Nazirliyinin menyüsünə!




***Azərbaycan səhiyyəsində növbəti qalmaqal baş verib. Bu qalmaqal isə ənənəvi olaraq hansısa xəstə, yaxud xəstə yaxını tərəfindən deyil, elə səhiyyə işçisi tərəfindən ortaya çıxarılıb.***

Belə ki, təcili yardım həkimi olaraq çalışan Pərvanə Fətullayevin sosial şəbəkə hesabından yazdıqları geniş marağa səbəb olub. Pərvanə xanımın yazdığına görə, kəskin insult (beyin qan dövranı pozğunluğu) şübhəsi olan bir xəstəni Sabunçu Tibb Mərkəzinə hospitalizasiya edib. Sitat: Xəstəxanadakı növbətçi həkim bizə "xəstəni o biri korpusa aparın, Beyin MRT-si etdirin" dedi. Müayinə olundu və bildirildi ki, "MRT cavabını oxuyan mütəxəssis hazırda yoxdur, sabah səhər saat 10-da gələcək..."

?Dəhşətli xəta da məhz buradadır! İnsult zamanı hər dəqiqədə 1.9 milyon beyin hüceyrəsi (neyron) ölür və həyat qurtarmaq üçün cəmi 4.5 saatlıq bir "terapevtik pəncərə" var. Xəstəni növbəti günün səhərinə qədər gözlətmək, onu birbaşa əlilliyə və ya ölümə tərk etmək deməkdir.

?Bəs DOĞRUSU nədir? (Beynəlxalq Protokol nə deyir?)

Amerika Ürək və İnsult Assosiasiyasının (AHA/ASA) rəsmi təlimatına əsasən, kəskin insult şübhəsi olan xəstə xəstəxanaya girən andan etibarən İLK ADDIM olaraq MRT yox, Kontrastsız Beyin KT-si (Kompüter Tomoqrafiyası) olunmalıdır!

?Niyə KT?

Sürət: KT müayinəsi cəmi 2-3 dəqiqə çəkir, MRT isə 25-30 dəqiqə (kəskin xəstə üçün bu böyük vaxtdır).

Məqsəd: İlk dəqiqələrdə məqsəd beyindəki zədənin böyüklüyünü görmək yox, xəstəyə tromb əridici müalicə vermək üçün əks-göstəriş olan QANAXMANI (Hemorragiyanı) istisna etməkdir. KT qanaxmanı təyin etmək üçün QIZIL STANDARTDIR.

Mütəxəssis asılılığı yoxdur: KT-də qanaxmanı təcili yardım həkimi və ya növbətçi həkim də xüsusi radioloq olmadan dərhal görə bilir. MRT-ni oxumaq isə mütəxəssis tələb edir (və bizim keysdəki kimi xəstə ortada qalır).

?"MRT etdirin, cavab sabah çıxacaq" yanaşması həm tibbi, həm də hüquqi baxımdan böyük bir xətadır. Tibb müəssisələrində daxili insult alqoritmləri mütləq yenilənməlidir. Xəstəxanaya gələn insult xəstəsi birbaşa və təcili olaraq KT-yə yönləndirilməlidir!"

Pərvanə xanımın paylaşımına yüzlərcə sosial şəbəkə istifadəçisi şərh yazıb. Şərhlərin az qala hamısında sadə vətəndaşlar, eləcə də səhiyyə sahəsində çalışan çox sayda mütəxəssis bu sahədəki bitmək bilməyən problemlərə, yanlışlıqlara diqqət çəkiblər. Məsələn, şərh müəlliflərindən biri qeyd edib: "Bizim bəlamız TƏBİB və onun daxili politikasıdır. Məqsəd camaatdan pul qopartmaq və öz cıblərini doldurmaqdır. Saat 15:00 dan sonra bir həkimi poliklinikada tapmaq olmur. Saat 15:30 da əmioğlunun uşağını gətirmişik poliklinikaya, həkim tapa bilmədik, təcili yardıma apardıq, yenə həmin mənzərə... Məcbur olduq 60 km yol sürüb şəhərə apardıq...".

Başqa bir istifadəçi isə Pərvanə xanıma xitabla yazıb: "Necə də gözəl izah etmisiniz hal-hazırkı xəstəxana problemlərini. Bir sözlə, dəhşətdir! Son zamanlar bizim təcili yardımımız olub gec və vec yardım! Keçən həftə təzyiqim qalxmışdı - 125/225... İnanın, təcili yardım 2 saat 45 dəqiqəyə gəldi, cağırış çoxdu çatdırmırıq deyirlər. Həkimin özünün psixoloq müalicəsinə ehtiyacı varıydı, köməkçisi maqnezium iynəsini necə sürətlə damarıma vurdusa az qaldı ürəyim dayansın...".

Şərh müəlliflərindən biri isə qeyd edib: "Atam 11 gün ağır vəziyyətdə reanimasiyada yatdı. Heç bir həkimin ağlına gəlməyib ki, şəkəri yoxlasın. Axırda şəkərdən komaya düşdü. Bir həftə komada qalandan sonra bilindi ki, şəkəri varmış. Gedib həkimdən səbəbini soruşdum, deyir, yoxlamağa şəkər iynəsi yox idi".

Digər şərh müəllifinin yazdıqlarından: "Anam oktyabr ayında ard-arda iki dəfə insult keçirtdi. Sadaladığınız problemlərin hamısını Sabunçuda da, Əfəndiyev adına xəstəxanada mən də yaşadım. Pul almaq üçün növbəyə duran həkimlərin, tibb bacılarının üzsüzlüyü barədə danışmaq istəmirəm... Təəsüflər olsun ki, fevral ayında anam dünyasını dəyişdi".

Başqa bir istifadəçi isə yazıb: "Bizim xəstənin ötən ayın 28-də vəziyyəti pisləşdi. Sabunçudan 2 dəfə təcili yardım çağrılıb... Xəstə anlaqsız vəziyyətdə olsa da, xəstəxanaya aparmayıb. 3-cü dəfə təcili yardım həkimi gəlib ki, xəstə insult keçirib və komaya düşüb. Günorta Sabunçu xəstəxanasına aparılıb, KT olunub. Beyində qanama və şiş aşkarlanmayıb. Oradan Məhəmmədi modul xəstəxanasına aparıldı və ayın 31-də rəhmətə getdi. Həkim səhlənkarlığı ucbatından...".

Digər bir şərh müəllifi isə vurğulayır ki, təcili tibbi yardıma zəng etdikdə "sizi operatora qoşuruq" cavabı ilə ən azı yarım saat gözləməli olursan, həkimin gəlişi isə 20-25 dəqiqə çəkir: "Daha bunun harası təcili tibbi yardım oldu?! Ya infarkt, ya insult, ya da hansısa ciddi problem yaşayan xəstəni ölümlə üz-üzə qoyurlar. Özəl klinikaların təcili tibbi yardımı isə od qiymətinədir. Təkcə təcili tibbi yardım maşınının gəlib xəstəni aparmasına azı 170-180 manat istəyirlər. İndi gəl ölmə, gəl yaşa görüm necə yaşayırsan?"

Bu məzmunlu şərhlərin sayı, yuxarıda da vurğuladığımız kimi, yüzlərcədir və Azərbaycan səhiyyəsinin illərdir həllini gözləyən, getdikcə sayı artan problemlərinin ağırlığını, ciddiliyini bir daha bütün çılpaqlığı ilə ortaya qoyur. İstər TƏBİB, istərsə Səhiyyə Nazirliyi üçün həm bu sahədə çalışan tibb bacılarının, həkimlərin, həm də sadə vətəndaşların yazdıqlarından ibrət alınmalı, dərs çıxarılmalı xeyli məqam var. Bir daha aydın olur ki, hər iki qurum səhiyyədəki problemləri, çatışmazlıqları palaz altına süpürmək, sanki bu problemlər yerli-dibli yox imiş kimi davranmaq, hər şeyin qaydasında olduğu görüntüsü yaratmaq əvəzinə mövcud reallığı qəbul etməli və problemlərin həlli istiqamətində konkret, təxirəsalınmaz tədbirlər görməyə başlamalıdır.

***Toğrul Əliyev***

21_27 IYUl-QARA.qxd 6/11/2026 7:49 PM Page 10



# "Milli Qurtuluş Günü: milli birlik və həmrəyliyin təntənəsi" - Millət vəkili yazır

***15 İyun - Milli Qurtuluş Günü milli dövlətçilik tariximizdə dönüş nöqtəsi olaraq xüsusi əhəmiyyət daşıyır. Hər il Azərbaycanda böyük ehtiramla qeyd olunan həmin gün ölkənin ictimai-siyasi həyatında sabitliyin bərpası və yeni inkişaf mərhələsinin başlanğıcı kimi yadda qalmışdır.***

1969-cu ildə Ulu Öndər Heydər Əliyev respublika rəhbərliyinə gəlişindən sonra ölkənin sosial-iqtisadi həyatında genişmiqyaslı yüksəliş mərhələsi başlanmışdır. Sənayeləşmə prosesinin sürətləndirilməsi, yeni istehsal sahələrinin yaradılması və iqtisadiyyatın müxtəlif istiqamətlər üzrə inkişaf etdirilməsi nəticəsində respublikanın sosial-iqtisadi tərəqqisi sürətlənmiş, ümumi inkişaf göstəriciləri əhəmiyyətli dərəcədə yüksəlmişdir. Kənd təsərrüfatı sahəsində aparılan məqsədyönlü islahatlar məhsuldarlığın artmasına, yeni aqrar texnologiyaların tətbiqinə və meliorasiya sistemlərinin genişləndirilməsinə səbəb olmuşdur. Elm və təhsil sahəsində həyata keçirilən siyasət nəticəsində yeni ali məktəblər və elmi-tədqiqat institutları yaradılmışdır.

1990-cı illərin əvvəllərində respublikada siyasi böhran hökm sürürdü. 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ölkəni bu ağır vəziyyətdən çıxarmaq üçün Bakıya gəldi. İyunun 15-də Ümummilli Lider Heydər Əliyev parlamentin qərarı ilə Ali Sovetin sədri seçilmişdir. Bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi daxil olmuşdur. Qısa müddət ərzində Ulu Öndər tərəfindən həyata keçirilən qətiyyətli addımlar nəticəsində ölkədə ictimai-siyasi sabitlik təmin olunmuş, dövlət strukturlarının fəaliyyəti bərpa edilmiş və mərkəzləşdirilmiş idarəetmə sistemi formalaşdırılmışdır. Bu sabitlik sonrakı islahatların həyata keçirilməsi üçün fundamental baza rolunu oynamışdır.

1994-cü il mayın 12-də Azərbaycan və Ermənistan arasında imzalanan atəşkəs sazişi nəticəsində hərbi əməliyyatların dayandırılması mühüm əhəmiyyət daşıyırdı. Bu addım respublikada ictimai-siyasi sabitliyin möhkəmlənməsinə zəmin yaratdı.

1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" ölkənin iqtisadi inkişafında yeni mərhələnin əsasını qoyaraq iri həcmdə xarici investisiyaların cəlb edilməsinə, enerji sektorunun sürətli inkişafına və beynəlxalq iqtisadi əlaqələrin genişlənməsinə imkan yaratdı. Eyni zamanda, ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar müdafiə potensialının gücləndirilməsinə, Silahlı Qüvvələrin formalaşdırılmasına və milli təhlükəsizliyin etibarlı təmin olunmasına mühüm töhfə verdi.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci il noyabrın 12-də keçirilən referendum (ümumxalq səsverməsi) nəticəsində qəbul edilən Konstitusiya hüquqi dövlət quruculuğu istiqamətində atılan ən mütərəqqi addımlardan biridir. Sosial-iqtisadi sahədə aparılan islahatlar bazar iqtisadiyyatının formalaşmasına, sahibkarlığın inkişafına, regionların tərəqqisinə və əhalinin rifah halının yüksəlməsinə xidmət etdi. Təhsil və səhiyyə sahələrində həyata keçirilən yeniliklər insan kapitalının inkişafına, vətəndaşların keyfiyyətli təhsil və tibbi xidmətlərlə təmin olunmasına şərait yaratdı. Beləliklə, həmin dövrdə müəyyənləşdirilən inkişaf strategiyası dövlətin gələcək yüksəlişinin əsasını təşkil edərək ölkənin davamlı inkişaf yolunu müəyyənləşdirdi.



Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən xarici siyasət strategiyası müasir dövlətçiliyin formalaşmasında və beynəlxalq münasibətlər sistemində həlledici rol oynamışdır. Bu siyasət balanslı, çoxşaxəli və milli maraqlara əsaslanan diplomatik xətt üzərində qurulmuş, qlobal güc mərkəzləri arasında tarazlığın qorunmasına və dövlətin müstəqil siyasi kursunun təmin olunmasına xidmət etmişdir. Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət konsepsiyası qarşılıqlı hörmət, bərabərhüquqlu əməkdaşlıq və daxili işlərə qarışmamaq prinsiplərinə əsaslanaraq ölkənin beynəlxalq nüfuzunun sürətlə artmasına şərait yaratmışdır.

Müstəqilliyin ilk illərində mövcud olan mürəkkəb geosiyasi vəziyyət və regionda davam edən münaqişələr fonunda düzgün xarici siyasət kursunun müəyyənləşdirilməsi dövlət üçün strateji əhəmiyyət daşıyırdı. Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi praqmatik xarici siyasət strategiyası Azərbaycanın qlobal arenada etibarlı tərəfdaş kimi tanınmasına zəmin yaratdı.

Nəqliyyat və kommunikasiya layihələri də xarici siyasət strategiyasının mühüm tərkib hissəsinə çevrilmişdir. Regionun tranzit potensialının artırılması məqsədilə həyata keçirilən layihələr ölkəni Şərq və Qərb arasında mühüm nəqliyyat və logistika mərkəzlərindən birinə çevirmiş, beynəlxalq yükdaşımalarında strateji mövqeyini daha da gücləndirmişdir. Bakı-Tbilisi-Qars dəmir yolu, neft və qaz kəmərləri kimi iri infrastruktur layihələri beynəlxalq əməkdaşlığın genişlənməsinə, regional inteqrasiyanın güclənməsinə və ölkənin strateji əhəmiyyətinin artmasına xidmət etmişdir. Bu layihələr nəticəsində ölkə yalnız enerji istehsalçısı deyil, həm də mühüm tranzit mərkəz kimi tanınmışdır.

Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İqtisadiyyatın rəqabətqabiliyyətliliyi artırılmış, genişmiqyaslı infrastruktur layihələri həyata keçirilmiş və sosial rifahın yüksəldilməsi istiqamətində mühüm nailiyyətlər əldə olunmuşdur. Eyni zamanda, Silahlı Qüvvələrin döyüş qabiliyyəti və müdafiə potensialı əhəmiyyətli dərəcədə gücləndirilmiş, dövlət təhlükəsizliyinin daha etibarlı şəkildə təmin olunmasına şərait yaranmışdır. Məhz bu ardıcıl və məqsədyönlü siyasət ölkənin gələcək inkişaf strategiyasının əsasını təşkil etmişdir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın 2020-ci ilin 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbə nəticəsində 30 ilə yaxın işğal altında qalmış tarixi torpaqlarımız azad edilmişdir. Bu Zəfər həm qətiyyətli siyasi iradənin, həm də güclü ordu quruculuğunun məntiqi nəticəsi kimi dəyərləndirilir. 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində separatizmə son qoyulmuş, ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam təmin edilmişdir.

Hazırda Böyük Qayıdış Proqramı çərçivəsində azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Müasir şəhər və kəndlərin salınması, infrastrukturun yenidən qurulması, nəqliyyat və enerji layihələrinin icrası bölgələrimizin sürətli dirçəlişinə xidmət edir. Məcburi köçkünlərin doğma yurdlarına qayıdışı mərhələli şəkildə təmin olunur və yeni həyat şəraiti yaradılır.

İctimai-siyasi sabitliyin etibarlı şəkildə qorunması, sosial-iqtisadi inkişafın davamlı xarakter alması və milli maraqların qətiyyətlə təmin olunması sayəsində əldə olunan mühüm nailiyyətlər Azərbaycanın hərtərəfli tərəqqisini və artan qüdrətini nümayiş etdirir. Bu uğurlar müstəqil dövlətimizin daha güclü, rəqabətqabiliyyətli və dayanıqlı gələcəyə doğru inamla irəlilədiyini təsdiqləyir.

***Bədəl Bədəlov,***
***Milli Məclisin deputatı***

## "Keyfiyyətsiz toxum dövriyyəsinin qarşısı alınacaq" - Nazir

***"Balıqçılıq və akvakultura sahəsində 1998-ci ildən qüvvədə olan qanunvericiliyin yenilənməsi nəzərdə tutulur. Yeni "Balıqçılıq haqqında" qanun rəqəmsallaşmanın genişləndirilməsi, qeydiyyat və uçotun sadələşdirilməsi, elektron xidmətlərin tətbiqi və idarəetmənin təkmilləşdirilməsini təmin edəcək. Eyni zamanda nəzarətin gücləndirilməsi ilə su bioresurslarının qorunması və qanunsuz ovçuluğun qarşısının alınması təmin olunacaq".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Aqrar siyasət komitəsində keçirilən "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələr barədə ictimai dinləmədə kənd təsərrüfatı naziri Məcnun Məmmədov deyib.

Nazir bildirib ki, bitkiçilik sektorunda toxumçuluq sahəsində islahatlar nəzərdə tutulur: ""Toxumçuluq haqqında" qanunun beynəlxalq standartlara uyğun yenilənməsi planlaşdırılır. Yeni çərçivə sertifikatlaşdırma və toxum təsnifatını, elektron xidmətlərin genişləndirilməsini və özəl sektorun elit toxum istehsalında iştirakını təmin edəcək. Eyni zamanda toxumların emalı və idxalına nəzarət gücləndiriləcək, keyfiyyətsiz toxum dövriyyəsinin qarşısı alınacaq".

***Anar Kəlbiyev***

## ADY sədri Astara Terminalında aparılan tikinti işləri ilə tanış oldu

***"Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) sədri Rövşən Rüstəmov İrana səfəri çərçivəsində bu ölkənin dəmiryol administrasiyasının rəhbəri Cabbar Əli Zakeri ilə birlikdə Astara Terminalında aparılan tikinti işləri ilə tanış olub.***

"Unikal" ADY-yə istinadən xəbər verir ki, terminala baxış zamanı layihənin icra vəziyyəti, görülən işlər və növbəti mərhələlər barədə ətraflı məlumat təqdim edilib. Bildirilib ki, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin əsas infrastruktur elementlərindən olan Astara Terminalında tikinti-quraşdırma işləri tamamlanmaq üzrədir.

Görüş zamanı tərəflər Azərbaycan və İranın dəmir yolları arasında əməkdaşlığın cari vəziyyətini, Şimal-Cənub dəhlizi üzrə yükdaşımaların inkişaf perspektivlərini və yük həcmlərinin artırılması imkanlarını müzakirə ediblər.

Qeyd olunub ki, Astara Terminalı tam istifadəyə verildikdən sonra illik 3,5-4 milyon ton yükötürmə qabiliyyəti ilə yük əməliyyatlarının daha səmərəli təşkilinə və regionun tranzit potensialının gücləndirilməsinə mühüm töhfə verəcək. İki ölkə arasında nəqliyyat-logistika əməkdaşlığının strateji komponentlərindən biri olan Astara Terminalının fəaliyyəti qarşılıqlı yük dövriyyəsinin artırılmasına, beynəlxalq yükdaşımaların sürətləndirilməsinə və Şimal-Cənub dəhlizinin rəqabətqabiliyyətinin yüksəldilməsinə xidmət edəcək.

Sonda Astara Terminalının tikintisinin tamamlanması və Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə yükdaşımaların artırılması sahəsində əməkdaşlığa dair protokol imzalanıb.

Qeyd edək ki, 2026-cı ilin 5 ayında Astara terminalında 345 min tondan çox yük aşırılıb. Bu, ötən ilin eyni dövrünün göstəricisindən 26 faiz çoxdur.

21_27 IYUl-QARA.qxd 6/11/2026 7:49 PM Page 11






## Azərbaycan və İran Araz çayının su ehtiyatlarının bölüşdürülməsini razılaşdırdı

***Azərbaycan ilə İran Araz çayının su ehtiyatlarının iki ölkə arasında bölüşdürülməsi ilə bağlı iş rejimlərini hazırlayaraq təsdiq edib.***

”Unikal” bu barədə Dövlət Su Ehtiyatları Agentliyinə istinadən xəbər verir.

Bu barədə razılıq iyunun 8-11-də Araz çayının su və energetika ehtiyatlarından istifadə üzrə Azərbaycan ilə İran arasında daimi fəaliyyət göstərən Birgə Komissiyanın 55-ci iclasında əldə olunub.

İranda keçirilən iclas Birgə Komissiyanın Azərbaycan tərəfdən həmsədri, ADSEA tabeliyində olan Regional Su Meliorasiya Xidmətinin İdarə Heyətinin sədri Zakir Quliyev və İran tərəfdən həmsədri, bu ölkənin Energetika Nazirliyinin Sərhəd Çayları üzrə Baş İdarəsinin rəisi Fəriba Avəridənin rəhbərliyi ilə baş tutub.

Tədbirdə Regional Su Meliorasiya Xidmətinin, ADSEA yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin, Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və ”Azərenerji” ASC-nin nümayəndələri iştirak ediblər.

Bununla yanaşı, çaydan götürülən suyun monitorinqinin aparılması, suyun keyfiyyətinə nəzarət, çayda müasir tipli yeni suölçmə qurğularının quraşdırılması və digər qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə edilib.

Müzakirələrin yekunu olaraq tərəflər arasında görüləcək işləri əhatə edən yekun protokol imzalanıb.

## Beynəlxalq sertifikatların maliyyələşdirilməsi proqramı hazırlanır

***Azərbaycanda aparıcı beynəlxalq təşkilatlardan xüsusi sertifikatlar əldə edən vətəndaşların maliyyələşdirilməsi üçün yeni proqram hazırlanır.***

”Unikal” xəbər verir ki, bunu İqtisadiyyat Nazirliyi yanında IV Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) icraçı direktoru Fariz Cəfərov Bakıda keçirilən “TECHNOVATION” Forumunda bildirib. Onun sözlərinə görə, proqram çərçivəsində hökumət özəl sektorla əməkdaşlıq edərək beynəlxalq sertifikatların əldə olunmasını dəstəkləyəcək. Dövlət tərəfindən prioritet hesab edilən sahələr üzrə sertifikatların siyahısı müəyyənləşdiriləcək və vətəndaşlar əldə etdikləri sertifikatlar əsasında maliyyə dəstəyi ala biləcəklər.

F.Cəfərov qeyd edib ki, süni intellekt və rəqəmsal texnologiyaların sürətli inkişafı əmək bazarında yeni bacarıqlara tələbi artırır. Bu səbəbdən əhalinin beynəlxalq səviyyədə tanınan sertifikatlar əldə etməsi və yeni ixtisaslar üzrə biliklərini artırması xüsusi əhəmiyyət daşıyır.

4SİM-in icraçı direktoru bildirib ki, Azərbaycan hipermiqyaslı data mərkəzlərinin ölkəyə cəlb olunması üçün xüsusi mexanizmlər də hazırlayır. Onun sözlərinə görə, Ələt Azad İqtisadi Zonası bu şirkətlər üçün uzunmüddətli güzəştlər və etibarlı enerji təchizatı imkanları təqdim edən ən cəlbedici məkanlardan biridir.

F.Cəfərov vurğulayıb ki, ölkənin məqsədi yalnız data mərkəzlərinin xidmətlərindən istifadə etmək deyil, həm də onların yaratdığı imkanlar hesabına Mərkəzi Asiya və ətraf regionlara xidmət göstərən regional rəqəmsal mərkəzə çevrilməkdir.

O əlavə edib ki, “Rəqəmsal İqtisadiyyatın İnkişafı Strategiyası” çərçivəsində startapların, vençur maliyyələşməsinin və investisiya axınlarının təşviqi məqsədilə 50-dən çox təşəbbüs nəzərdə tutulub və bunların arasında səkkiz flaqman layihə xüsusi yer tutur.

# Məmurların havaya sovurduğu milyonlarla manatın şok pərdəarxası

## Maştağadakı olimpiya idman kompleksi də fəaliyyətsiz və baxımsız vəziyyətə düşdü - OİK-lərə xərclənən böyük pulların izi ilə...



***2001-ci ilin dekabrın 29-dan istifadəyə verilən, cüdo, kikboksinq və karate bölmələrinin fəaliyyət göstərdiyi Maştağa Olimpiya İdman Kompleksi (OİK) artıq uzun müddətdir xidmətdən kənardır. Bu da azmış kimi kompleks tamamilə baxımsız vəziyyətə düşüb. Onun divarları az qala uçulub tökülür, ətrafında iri gölməçələr yaranıb. Həmçinin kompleksin yaşıllıqları da məhv olmaqdadır. Binanın daxilində də vəziyyət ürəkaçan deyil. Kompleks az qala xarabalığı xatırladır.***

“Unikal”ın araşdırmasına görə, təxminən 2020-ci ildə kompleksdə təmir işlərinə başlanacağı bildirilib. Lakin sonradan bu proses yarımçıq qalıb və unudulub. Bir vaxtlar orada idman yarışları keçirildiyi halda xeyli vaxtdır sözügedən OİK sürətlə viranəliyə çevrilməkdədir.

Hələ bir neçə ay əvvəl məşqçi Əfqan Quliyev bildirib ki, kompleksin düşdüyü acınacaqlı vəziyyət ona pis təsir edir: “”2003-cü ildən 2008-2009-cu ilə qədər tələbə kimi idmanın kikboksinq növü ilə məşğul olmuşam. Hazırkı vəziyyətə görə tələbələr məşq edə bilmirlər”.

Gənclər və İdman Nazirliyi isə bir müddət öncə yerli KİV-in sorğusuna cavab olaraq bildirmişdi ki, 2001-ci ildən fəaliyyətə başlayan kompleks təxminən 22 ildən sonra nazirliyin balansına verilib: ”Düşünürük ki, 2026-cı ilin sonunadək kompleksin əsas binasının təmir işləri başa çatdırılaraq Maştağa qəsəbəsinin sakinlərinin istifadəsinə veriləcək”. Lakin ilin yarısı arxada qaldığından, kompleksdə isə hazırda hansısa təmir işlərindən əsər-əlamət olmadığından bu vədin reallaşması inandırıcı görünmür.

“Unikal”ın araşdırması zamanı o da məlum olub ki, adıçəkilən OİK üç il öncə kommersiya qurumuna çevrilib. Belə ki, 2023-cü ilin aprelində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ”Maştağa Olimpiya İdman Kompleksi” MMC-ni dövlət qeydiyyatına alıb.

Yeni şirkətin hüquqi ünvanı Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsi, Zabrat-Maştağa yolu, 5, nizamnamə kapitalı 2 270 438 manat, qanuni təmsilçisi isə Ərşad Cahid oğlu Nəsibov olaraq göstərilib.

Lakin 2 milyon 200 min manatdan artıq nizamnamə kapitalı olduğu deyilən OİK-in niyə indiki acınacaqlı durumda olduğu qaranlıq qalır.

Qeyd edək ki, Azərbaycandakı olimpiya idman komplekslərinin funksionallığı uzun müddətdir ki, ciddi müzakirə və mübahisə mövzusudur. Məsələn, deputat Aqil Abbas 2022-ci ildə açıq şəkildə bildirmişdi: ““Rayonlarda 10-15 milyona Olimpiya İdman Kompleksləri tikilib, amma heç bir nəticə yoxdur. O komplekslərdə indiyə kimi nə güləşçi, nə boksçu, nə də bir futbolçu yetişib”.

Üstəlik, OİK-lərdə ciddi yeyintilər olduğuna dair şübhələr var. Hətta bu yaxınlarda Hesablama Palatasının apardığı auditin ictimaiyyətə açıqlanan nəticələri həmin şübhələrin əbəs olmadığını aydın şəkildə gözlər önünə sərmişdi. Gənclər və İdman Nazirliyinin tabeliyində fəaliyyət göstərən bu komplekslərdəki yoxlamalar zamanı ciddi maliyyə pozuntuları və idarəetmə boşluqları müəyyənləşdirilmişdi. Bildirilirdi ki, sözügedən audit 2022-2025-ci illəri əhatə etməklə 15 milyon manat vəsaiti əhatə edib.

Hesabatda qeyd olunurdu ki, OİK-lərin fəaliyyəti üzrə strateji planlaşdırma aparılmayıb, tarif siyasəti əsaslandırılmayıb və gəlirlərin böyük hissəsi subsidiyalardan asılı vəziyyətdə qalıb. Bir çox hallarda qiymətlər xərclər nəzərə alınmadan müəyyən olunub. Eyni zamanda, maliyyə hesabatlarının əksər komplekslərdə tərtib edilmədiyi, gəlirlərin bir hissəsinin rəsmiləşdirilmədən nağd qəbul olunduğu və vergi öhdəliklərinin düzgün yerinə yetirilmədiyi aşkarlanıb.

Digər tərəfdən, Azərbaycandakı olimpiya idman komplekslərinin potensialından, resurslarından düzgün (və lazımınca!) istifadə edilmədiyinin, kimlər üçün isə qazanc mənbəyinə çevrildiyinin sübutlarından biri isə Tokio-2020 Yay Olimpiya oyunlarına həm əvvəlki illərlə müqayisədə az idmançı ilə qatılmağımız (cəmi 44 idmançı - məsələn, əvvəlki Rio-de-Janeyro olimpiadasından (2016) 11 idmançı az), həm də son olimpiadalarda ilk dəfə olaraq bir qızıl medal belə ala bilməməyimiz oldu. Bundan sonra Hesablama Palatası Gənclər və İdman Nazirliyində genişmiqyaslı audit apardı, onda da olimpiya idman kompleksləri ilə bağlı ciddi nöqsanlar aşkarlandı.

Zaman dəyişir, dəyişməyən isə olimpiya idman komplekslərində milyonlarla manatın səmərəsiz xərclənməsi, onların tikinti, təmir və idarəçiliyi ilə bağlı ciddi nöqsanlara yol verilməsi, bu qurğuların ölkə idmanının inkişafından çox, kimlərinsə merkantil maraqlarına xidmət eləməsidir. Son olaraq Maştağa Olimpiya İdman Kompleksinin düşdüyü acınacaqlı durum bu ürəkağrıdan reallığı bir daha aydın şəkildə ortaya qoyur. Və belə görünür ki, vaxtilə dövlətə milyonlarla manata başa gəlmiş OİK-lərlə bağlı əməli fəaliyyətə keçilməsinə əşhədü-ehtiyac var...

***Sənan Mirzə***

**5.3.11. regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Regionların inkişafında kənd təsərrüfatı siyasəti necə qurulmalıdır?

## Vahid Məhərrəmov: "Qəbul olunan dövlət proqramları reallığı əks etdirməli, kənd təsərrüfatının inkişafına mane olan problemlər dərhal aradan qaldırılmalıdır"



***Ötən həftə Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə keçirildi. Müşavirədə prioritet istiqamətlərdən biri də, regionların iqtisadi inkişafı, urbanizasiya probleminin qarşısının alınması üçün regional inkişaf proqramının səmərəsi məsələsi idi.***

Dövlət başçısı 2004-cü ilin əvvəlində qəbul edilmiş birinci beşillik proqramın bir çox məsələlərin həll edilməsinə kömək göstərdiyini və bu proqramın davamlı olduğunu xatırlatdı. Bildirdi ki, beşillik regional inkişaf proqramı nəticəsində bütün regionlar canlandı, regionlarda məşğulluq artdı və böyük infrastruktur layihələri icra edildi.

"Bu layihələr olmadan Azərbaycanın ümumi inkişafını təsəvvür etmək mümkün deyil. O cümlədən kənd təsərrüfatının inkişafı üçün bu proqramda nəzərdə tutulmuş infrastruktur layihələri həlledici rol oynamışdı. Çünki o vaxt bölgələrdə demək olar ki, qaz təchizatı yox idi. Elektrik təchizatı ilə nəinki regionlarda, Bakıda böyük problemlər yaşanırdı, hətta böyük fasilələr olurdu. Avtomobil yolları yararsız vəziyyətdə idi. Su ilə təchizat demək olar ki, tamamilə tükənmişdi. Yeni kəndlərin dirçəldilməsi və kəndlərdə yaşayan insanların yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün bu proqramın həlledici rolu olmuşdu. O ildən bu yana bölgələrdə genişmiqyaslı infrastruktur layihələri icra edildi", deyə prezident vurğulayıb.

Prezident qeyd edib ki, elə etmək lazımdır ki, bölgələrdən şəhərə kütləvi axının qarşısı alınsın:" Biz elə etməliyik ki, kəndlərdən şəhərlərə yox, şəhərlərdən kəndlərə qayıdış prosesi başlasın. Bunun üçün də əlbəttə ki, kəndlə şəhər arasındakı istənilən istiqamətlər üzrə fərqlər azaldılmalıdır. Qeyd etdiyim Regional İnkişaf Proqramının və proqramlarının, - dediyim kimi, bir neçə proqram qəbul edilmişdir, - məqsədi də bu idi ki, bölgələrdə elə şərait yaradılmalıdır ki, insanlar orada yaşasınlar, qalsınlar, öz dədə-baba torpaqlarında çalışsınlar, ənənəvi fəaliyyətlə məşğul olsunlar, əkin, biçin, turizm imkanları. Yəni orada xidmət sektoru da yüksək səviyyədə olmalıdır. Onu da bildirməliyəm ki, biz Regional İnkişaf proqramlarını icra etdikcə sosial infrastruktur layihələrini də uğurla icra etmişik. Bizim bütün rayon mərkəzlərində, şəhərlərdə müasir xəstəxanalar var, məktəb tikintisi geniş vüsət almışdır. Düzdür, hələ yararsız vəziyyətdə məktəblər var, amma onların sayı ildən-ilə azalır. Bizim 4 mindən çox məktəbimiz var, bəlkə də bir az az, bir az çox. Onların təqribən deyə bilərəm ki, 80-85, bəlkə də 90 faizi təmir edilib, nə qədər məktəb tikilib. Ona görə bölgələrdə məşğulluğu artırmaq və insanları torpağa daha bağlı etmək üçün biz kənd təsərrüfatının inkişafına yeni təkan verməliyik".

İlham Əliyev onu da vurğulayıb ki, qəbul edilmiş proqramlar və qərarlar böyük dönüşə səbəb olub. Ancaq son bir neçə il ərzində kənd təsərrüfatının inkişafında müşahidə edilən durğunluq onu düşündürür.

Dövlət başçısı qeyd edib ki, ət, süd, quş əti ilə 100 faiz özümüzü təmin etməliyik.

"Mən rəqəmləri qeyd etdim, təqribən 80-90 faiz səviyyəsindədir. Bunu 100 faizə çatdırmaq üçün mən hesab edirəm ki, imkanlar var və bu proqram qeyd etdiyim kimi, qısamüddətli olmalıdır, 2026-2030-cu illəri əhatə edəcək. Nəzərə alsaq ki, 2026-cı ilin demək olar ki, yarısı artıq arxada qalır, bu proqramın icrası üçün cəmi dörd il yarım qalır. Buna görə dövlət xətti ilə proqramın maliyyələşdirilməsi üçün vəsait bu il ayrılmalıdır", deyə Prezident müşavirədə vurğulayıb.

Müşavirədə prezidentin səsləndirdiyi rəqəmlərə görə, Azərbaycan mal əti ilə özünü 84 faiz təmin edir. 30 min ton isə idxal hesabına təmin edilir. Bunun 150 min tonu daxili istehsal hesabınadır. Quş əti ilə təminat isə 82 faizdir. Bunun isə 147 min tonu istehsal, 32 min tonu idxaldır. Qoyun-keçi əti ilə təminat 94 faizdir ki, bunun da 88 faizi istehsal, 5 min tonu idxal qarşılayır.

Bitki yağları ilə özümüzü 52 faiz təmin edirik. Kərə yağı ilə 62 faiz, istehsal 26 min ton, idxal 20 min ton, ixrac isə 4 min tondur.

Kənd təsərrüfatı üzrə ekspert Vahid Məhərrəmov "Unikal" qəzetinə müsahibəsində bildirib ki, regionlarla bağlı qəbul olunan proqramlar reallığı əks etdirməli, kənd təsərrüfatının inkişafına mane olan problemlər dərhal aradan qaldırılmalıdır. Onun sözlərinə görə, bu halda bu sistem saat mexanizmi kimi dəqiq işləyəcək. O, həmçinin vurğulayıb ki, kəndlilər də maarifləndirilməlidir: "Bazar iqtisadiyyatı bizdən məhsuldarlığın yüksək olmasını və yüksək keyfiyyət tələb edir. Belə olarsa, kəndlinin məhsulu satılacaq. Biz özümüzü əsas ərzaqla təmin etməli, yüksək keyfiyyətli məhsulla ixraca yönəlməliyik".

V.Məhərrəmov onu da qeyd edib ki, ənənəvi üsulla kənd təsərrüfatını inkişaf etdirmək olmaz. Mütəxəssis vurğulayıb ki, indi heyvandarlığın inkişafı üçün örüş ərazilərı çatışmır.

"Bələdiyyələrin örüş ərazilərini satması insanları heyvandarlıqdan bir növ küsdürdü. Ona görə də, örüş əraziləri geri qaytarılmalıdır. İnsanlar ona görə də, fərdi təsərrüfatlarında mal-qaranın sayını azaltdılar. İndi az sahədən daha çox məhsul əldə etmək imkanı var. Müasir texnologiya və yanaşma buna geniş imkanlar yaradır. Bununla biz indikindən iki dəfə çox məhsul əldə edə bilərik. Bu zaman biz az torpaqdan çox və keyfiyyətli məhsul götürə bilərik. Azərbaycanda 960 min ailəyə pay torpağı verildi. İndi onların dörddə biri kənd təsərrüfatı ilə məşğuldur. Buna görə də maarifləndirmə işləri aparılmalıdır. Bu sahəyə məsul şəxsin kənd təsərrüfatını praktiki olaraq bilməsi vacibdir", - deyə müsahibimiz bildirib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# "Bu, bankların kredit verməsini asanlaşdıracaq" - İqtisadçı

***"İndiyə qədər sahibkarlara verilən kreditlər üzrə dövlət zəmanəti və faiz subsidiyasını İpoteka və Kredit Zəmanət Fondu verirdisə, artıq yeni fərmana əsasən, bu səlahiyyətlər Azərbaycan Biznesinin İnkişafı Fonduna keçir".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. O bildirib ki, burada məsələyə bir neçə aspektdən yanaşmaq olar: "Əvvəla, mahiyyət etibarilə bu səlahiyyətlərin bir qurumdan digərinə ötürülməsini düzgün addım hesab edirəm. Ona görə ki, kredit zəmanəti və faiz subsidiyası mexanizmləri birbaşa sahibkarlığın inkişafına xidmət edən alətlərdir və onların bu sahə üzrə ixtisaslaşmış qurum tərəfindən idarə olunması daha çevik qərarların qəbuluna, resursların daha səmərəli yönləndirilməsinə və sahibkarların ehtiyaclarına daha operativ cavab verilməsinə imkan yarada bilər. O ki qaldı yeniliklərə, burada ən vacib və doğru məqam 2026-cı ildən etibarən bu mexanizmin Bakı və Abşeronda deyil, digər rayon və şəhərlərdə tətbiq edilməsidir. Yəni, regionlara fokuslanma ilkin olaraq 2030-cu ilin sonuna qədər pilot layihə kimi işləyəcək. Şərtlərə gəldikdə isə əgər sahibkar kredit götürürsə və faiz dərəcəsi maksimum 13%-dirsə, onda faiz fərqinin yarısını dövlət ödəyəcək. Məsələn, kredit faizi 12%-dirsə, onda dövlət bunun 6%-ni ödəyir. Yəni, faiz yükü iki dəfə azalır. Digər önəmli məsələ dour ki, əgər sahibkarın kifayət qədər girovu yoxdursa, dövlət kreditin bir hissəsinə zəmanət verəcək. Yeni qaydaya görə işğaldan azad olunmuş ərazilərdə kreditin 90%-dək hissəsinə zəmanət verilə bilər. Digər rayonlarda kreditin 50%-dək hissəsinə zəmanət verilə bilər. Bu da bankların kredit verməsini asanlaşdırır. Amma dövlət zəmanəti verilən kreditlərin ümumi məbləği 5 milyon manatı keçməməlidir. Əlaqəli şirkətlər qrupu üzrə isə maksimum 10 milyon manatdır".

Onun sözlərinə görə, bu fərmanla dövlət istəyir ki, regionlarda biznes qurmaq asanlaşsın, sahibkarlar daha ucuz kredit ala bilsin, girov problemi olan sahibkarlar maliyyəyə çıxış əldə etsin, Bakıdan kənarda investisiyalar artsın: "Hazırda ölkə üzrə yatırılan investisiyalarda və biznes kreditləri portfelində regionların payı arzuolunan səviyyədən aşağıdır. İqtisadi fəallığın və maliyyə resurslarının əhəmiyyətli hissəsi Bakı və Abşeron ərazisində cəmləşib. Bu baxımdan regionlarda sahibkarlığın maliyyə resurslarına çıxışını genişləndirən, investisiya qoyuluşlarını təşviq edən və biznes aktivliyini artıran hər bir qərar xüsusi əhəmiyyət daşıyır. Hesab edirəm ki, bu fərman məhz regionların iqtisadi potensialının daha dolğun reallaşdırılmasına xidmət edən mühüm addımlardan biridir".

# Ucarda tikinti statistikası

***İlkin məlumatlara əsasən 2026-cı ilin yanvar-mart aylarında müəssisə və təşkilatlar tərəfindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala bütün maliyyə mənbələrindən 1312,5 min manat və ya 2025-ci ilin müvafiq dövrünə nisbətən 4,3 faiz az investisiya yönəldilmişdir.***

Əsas kapitala yönəldilmiş investisiyanın 797,1 min manatı və ya 60,7 faizi dövlət, 515,4 min manatı və ya 39,3 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür.




**Ticarət**

2026-cı ilin yanvar-mart aylarında Ucar rayonunda pərakəndə ticarət şəbəkələri tərəfindən əhaliyə 68528,0 min manatlıq və ya 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 0,7 faiz çox istehlak malları satılmışdır.

**Pərakəndə ticarət dövriyyəsinin strukturu, min manatla**

| Göstəricilərin adı | yanvar-mart ayları | | |
|---|---|---|---|
| | 2026-cı il | 2025-ci il | 2025-ci ilə nisbətən, faizlə |
| Pərakəndə ticarət dövriyyəsi, cəmi | 68528,0 | 64415,0 | 100,7 |
| o cümlədən:<br>hüquqi şəxslər üzrə | 12007,4 | 10876,8 | 104,5 |
| fərdi sahibkarlar,<br>bazar və yarmarkalar üzrə | 56520,6 | 53538,2 | 100,0 |
| | | | |
| | | | |

# İnformasiya və rabitə

2026-cı ilin yanvar-mart aylarında informasiya və rabitə sektorunda fəaliyyət göstərən müəssisələr tərəfindən 582,0 min manatlıq xidmət göstərilmiş, 2025-ci ilin müvafiq dövrünə nisbətən 3,6 faiz və ya 10,4 min manat az olmuşdur.

**Rabitə müəssisələrinin fəaliyyəti, min manatla**

| Göstəricilərin adı | yanvar-mart ayları | | |
|---|---|---|---|
| | 2026-cı il | 2025-ci il | 2025-ci ilə nisbətən, faizlə |
| Rayon üzrə cəmi | 582,0 | 592,4 | 96,4 |




***Ucar rayon Statistika İdarəsi***

# Naxçıvanda əhalinin sayı artıb

***Naxçıvan Muxtar Respublikasında (MR) əhalinin sayı artıb.***

Bu barədə "Unikal"a Naxçıvan MR Dövlət Statistika Komitəsindən məlumat verilib.

Bildirlib ki, 1 may 2026-cı il tarixə muxtar respublikada əhalinin sayı 2025-ci ilin müvafiq dövrünə nisbətən 1293 nəfər və ya 0,3 faiz artaraq 472727 nəfər olub.

# Doktorantura üçün dil imtahanı keçirilacək

***Doktoranturaya qəbul olmaq istəyən namizədlər və doktoranturada oxuyan iddiaçıların xarici dillər üzrə imtahana, həmçinin əcnəbilər üçün Azərbaycan dili imtahanına qeydiyyat elan edilir.***

Dövlət İmtahan Mərkəzindən "Unikal"a verilən məlumata görə, imtahanda iştirak etmək üçün qeydiyyat 2026-cı il iyunun 11-dən 14-dək elektron qaydada aparılacaq.

Həm doktoranturaya qəbul olmaq istəyən namizədlər, həm də doktoranturada oxuyan iddiaçılar üçün xarici dillər üzrə imtahan 2026-cı il iyunun 25-də keçiriləcək. Doktorantura və dissertantura üzrə əcnəbilər üçün Azərbaycan dili imtahanı isə 16 iyunda keçiriləcək. Danışıq bloku üzrə imtahanın 17-19 iyun tarixlərində keçirilməsi planlaşdırılır.

Dövlət İmtahan Mərkəzi 2026-cı il iyun 11-dən 14-dək 2026/2027-ci tədris ili üçün doktoranturaya və dissertanturaya xarici dil üzrə qəbul imtahanında iştirak etmək üçün namizədlərin qeydiyyatını elan edir.

Mərkəz eyni zamanda, qeyd olunan tarixlərdə doktorantura, dissertantura və adyunkturada təhsil alan və ya təhsilini bitirmiş iddiaçıların xarici dil üzrə, həmçinin əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanlarında iştirak etmələri üçün qeydiyyat elan edir.

Bu müddət ərzində doktorantura və dissertanturaya qəbul olunmaq üçün sənədlərini Azərbaycan Respublikasının doktoranturalar yaradılan ali təhsil müəssisələrinə, elmi müəssisə və təşkilatlarına təqdim etməyə hazırlaşan namizədlər və Azərbaycan Respublikasının ali təhsil müəssisələrində, elmi müəssisə və təşkilatlarında doktorantura və ya dissertanturada, həmçinin hərbi təhsil müəssisələrində adyunkturada təhsil alan və ya təhsilini bitirmiş iddiaçılar Mərkəzin internet saytında (https://ekabinet.dim.gov.az/ ) "Şəxsi kabinet" yaratmalı (şəxsi kabineti olmayanlar) və xarici dil üzrə, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər isə Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanında iştirak etmək üçün qeydiyyatdan keçməlidirlər.



İmtahanda iştirak ödənişlidir. Namizəd və iddiaçılar "Şəxsi kabinet" yaradıqdan sonra həmin kabinetin pul hesabına imtahanda iştirak üçün tələb olunan 110 (yüz on) manat məbləğində pul vəsaitini (xarici dil imtahanından azad olunanlar istisna olmaqla) əlavə etməlidirlər.

20 oktyabr 2026-cı ildən sonrakı tarixlər üzrə qüvvədə olan müvafiq xarici dil sertifikatına malik namizədlər xarici dil imtahanından azad olunur və ərizənin təsdiqi zamanı heç bir ödəniş etmirlər. Digər namizədlər ərizələrini təsdiq edərkən onların şəxsi kabinetinin pul hesabından tələb olunan məbləğ (110 manat) silinir.

Mərkəzin doktorantura səviyyəsində xarici dil üzrə qəbul imtahanı zamanı müvafiq magistratura ixtisaslaşmasını (filologiya, (xarici dil və ədəbiyyat üzrə dilşünaslıq və ya ədəbiyyatşünaslıq), xarici dil və ədəbiyyat müəllimliyi, xarici dil müəllimliyi və tərcümə ixtisasları üzrə) bitirən namizədlərin xarici dil seçiminə məhdudiyyət qoyulmur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın 3.10-cu bəndini nəzərə alaraq yuxarıda qeyd olunan müvafiq magistratura ixtisaslaşmasını bitirən namizədlər də xarici dil üzrə qəbul imtahanı zamanı ixtisaslaşma dilini xarici dil kimi seçə və ya ixtisaslaşma dili üzrə beynəlxalq sertifikat təqdim edə bilərlər.

Qeyd edək ki, fəlsəfə doktoru imtahanlarının nəticələri həmin imtahanların verildiyi tarixdən dissertasiyanın ilkin müzakirəsinədək beş il müddətində etibarlı sayılır. Xarici dil, həmçinin əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar üçün Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanını uğurla vermiş (xarici dil üzrə fəlsəfə doktoru imtahanından ən azı 30 bal, əcnəbilər üçün Azərbaycan dili imtahanından isə ən azı 25 bal toplamış) iddiaçılara Ali Attestasiya Komissiyasının müəyyən etdiyi formada həmin imtahanda onların göstərdikləri nəticəni özündə əks etdirən, fəlsəfə doktoru dissertasiyasının ilkin müzakirəsinədək beş il müddətində etibarlı sayılan şəhadətnamə verilir.

İddiaçının xarici dil, habelə əcnəbi və vətəndaşlığı olmayan iddiaçılar üçün Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanının nəticəsi "qeyri-kafi" qiymətləndirildikdə ona şəhadətnamə verilmir.

# "Arzum" ləqəbli tiktokerin heç bir vəsatəti təmin edilmədi

***Yol qəzasında bir nəfərin ölümü və digərinin xəsarət almasında təqsirləndirilən "Arzum 999" ləqəbli tiktoker İlduzə Hacıyevanın cinayət işi üzrə məhkəmə prosesinin növbəti prosesi keçirilib.***

"Unikal"ın məlumatına görə, Xəzər Rayon Məhkəməsində keçirilən prosesdə cinayət işinin ibtidai istintaqını aparan Xəzər rayon Polis İdarəsinin baş müstəntiqi ifadə verib. Hadisə baş verəndən bir müddət sonra müstəntiqin hadisə yerinə gəlməsi və hadisə yerinin vəziyyəti ilə bağlı protokollarda aparılan qeydlər zamanı yaranmış anlaşılmazlıqlara müstəntiq aydınlıq gətirib.




Təqsirləndirilənin vəkilləri isə öz növbəsində ibtidai istintaq zamanı hadisə yerinin sxeminin tərtibi və bəzi müayinələr zamanı müəyyən problemlərin olduğunu deyiblər.

Təqsirləndirilən şəxsin vəkili Hikmət Əliyev ibtidai istintaqın yenidən aparılması ilə bağlı vəsatət təqdim etsə də məhkəmə vəsatəti təmin etməyib.

Daha sonra protokollara əlavə edilmiş hal şahidlərininin ifadələri ilə bağlı təqsirləndirilənin digər vəkili Fərid Həsənov vəsatət verərək, qəza baş verən zaman hal şahidlərinin həqiqətən də hadisə yerində olub olmadıqlarını müəyyənləşdirmək üçün anten dairələrinin müəyyənləşdirilməsini istəyib.

Məhkəmə bu vəsatəti də təmin etməyib. Məhkəmənin növbəti iclası iyunun 18-nə təyin edilib.

Qeyd edək ki, hadisə 2025-ci ilin iyununda paytaxtın Xəzər rayonu, Mərdəkan qəsəbəsində qeydə alınıb. Qəza nəticəsində qarşı tərəfdən 1 nəfər ölüb, digəri isə ağır xəsarət alıb.

Xatırladaq ki, istintaq zamanı bloger Arzum barəsində həbslə bağlı olmayan qətimkan tədbiri seçilib.

"Arzum" ləqəbli tiktokerə qarşıCinayət Məcəlləsinin 263.2-ci (yol hərəkəti və ya nəqliyyat vasitəsinin istismarı qaydalarının pozulması - ölümlə nəticələndikdə) və 264-cü (Yol nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ittiham irəli sürülüb.

***Orxan Rasifoğlu***

21_27 IYUl-QARA.qxd 6/11/2026 7:49 PM Page 14



# Azərbaycanda ötən ay bu məhsullar ucuzlaşıb

***Bu ilin may ayında Azərbaycanda qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri aprel ayına nisbətən 0,1 % azalıb, ötən ilin eyni dövrü ilə müqayisədə isə 6,6 % artıb.***

Bu barədə "Unikal"a Dövlət Statistika Komitəsindən bildirilib.

Məlumata görə, ay ərzində ayrı-ayrı qida məhsullarından qarabaşaq yarması, mal və qoyun əti, kolbasa məmulatları, pendir, kəsmik, süfrə marqarini, günəbaxan və qarğıdalı yağı, limon, alma, kivi, ağ kələm, brokkoli, göyərti, göy lobya, süfrə çuğunduru, soğan, qazlı və qazsız sular bahalaşıb, təzə balıq, yumurta, banan, çiyələk, xiyar, pomidor, şirin bibər, badımcan, yerkökü, sarımsaq və kartof ucuzlaşıb, digər qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.



Bundan başqa, ötən ay qeyri-qida məhsulları üzrə istehlak qiymətləri əvvəlki aya nisbətən 0,1 %, ötən ilin eyni dövrü ilə müqayisədə isə 3,9 % artıb. Ay ərzində boya, plastik boru, yuyucu vasitələr və şəxsi gigiyena məmulatları bahalaşıb, zərgərlik məmulatları ucuzlaşıb, digər qeyri-qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Mayda əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə qiymət artımı aprelə nisbətən 0,2 %, ötən ilin eyni dövrü ilə müqayisədə 5,7 % təşkil edib. Ay ərzində hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətləri bahalaşıb, digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Bu ilin yanvar-may aylarında istehlak qiymətləri 2025-ci ilin yanvar-may aylarına nisbətən 5,6 %, o cümlədən qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 6,7 %, qeyri-qida məhsulları üzrə 3,7 %, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 5,7 % artıb.

2025-ci ilin may ayı ilə müqayisədə illik qiymət artımı 5,6 %, son bir ayda isə 0,1 % təşkil edib.

# 2026-cı ilin yanvar-mart aylarında Balakənin iqtisadi və sosial inkişafının göstəriciləri

***Umumi məhsul buraxılışının həcmi 2025-ci ilin yanvar-mart ayları ilə müqayisədə 2026-cı ilin yanvar-mart aylarında ilkin hesablamalara görə real ifadədə 6,6 faiz artaraq 71770,2 min manat təşkil etmişdir. Məhsul buraxılışının 32,5 faizi sənaye, 1,9 faizi tikinti, 21,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 1,3 faizi informasiya və rabitə, 39,5 faizi isə ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində istehsal edilmişdir.***




Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2026-cı ilin yanvar-mart aylarında 23346,1 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 9,3 faiz çox sənaye məhsulu istehsal edilmişdir.

Sənaye məhsulunun 83,5 faizi emal sektorunda, 15,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda və 1,0 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 aprel 2026-cı il vəziyyətinə 105,2 min manatlıq hazır məhsul olmuşdur.

Kənd təsərrüfatında 2026-cı ilin yanvar-mart aylarında 15323,0 min manat məbləğində və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 3,3 faiz çox kənd təsərrüfatı məhsulu istehsal edilmişdir.

Hesabat dövründə diri çəkidə 1140,2 ton ət, 5829,3 ton süd və 2863,0 min ədəd yumurta istehsal olunmuşdur. 2025-ci ilin yanvar-mart ayları ilə müqayisədə ət istehsalı 3,5 faiz, süd istehsalı 3,2 faiz və yumurta istehsalı 2,0 faiz artmışdır.

2026-cı ilin yanvar-mart aylarında əsas kapitala 3266,3 min manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 15,2 faiz az investisiya yönəldilmişdir.

Nəqliyyat və anbar təsərrüfatı sektorunda 2026-cı ilin yanvar-mart aylarında 2513,4 min manat məbləğində və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 58,1 faiz çox xidmət göstərilmişdir. Nəqliyyat sektorunda 216,0 min ton və ya ötən ilin eyni dövrü ilə müqayisədə 5,4 faiz çox yük, 1930,0 min və ya ötən ilin eyni dövrü ilə müqayisədə 6,6 faiz çox sərnişin daşınmışdır.

İnformasiya və rabitə müəssisələri tərəfindən 2026-cı ilin yanvar-mart aylarında 904,5 min manat məbləğində və ya ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 13,4 faiz az xidmət göstərilmişdir.

2026-cı ilin yanvar-mart aylarında istehlakçıların pərakəndə ticarət şəbəkəsində xərclədiyi ümumi vəsait 86976,2 min manat təşkil etmiş və bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 0,2 faiz artmışdır. Ticarət şəbəkəsində 58891,4 min manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 28084,8 min manatlıq qeyri-ərzaq malları satılmışdır.

2026-cı ilin yanvar-mart aylarında xidmət subyektləri tərəfindən əhaliyə 20991,7 min manatlıq ödənişli xidmət göstərilmiş və 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir 8,9 faiz artmışdır.

2026-cı ilin yanvar-mart aylarında muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2025-ci ilin müvafiq dövrünə nisbətən 5,3 faiz artaraq 637,3 manat təşkil etmişdir.

2026-cı il aprel ayının 1-i vəziyyətinə rayon əhalisinin sayı ilkin hesablamalara görə 101287 nəfər təşkil etmişdir.

***Balakən Rayon Statistika İdarəsinin rəisi Əsəbəli Alqayev***




# Samux rayonunda taxıl biçini başlamışdır

***Ərzaq təhlükəsizliyinin təminatında strateji əhəmiyyəti olan taxılçılıq kənd təsərrüfatı sektorunun aparıcı sahələrindən biridir.***

2026-cı ilin məhsulu uçun rayon üzrə 11211,2 hektar sahədə taxıl biçini aparılacaq. Biçin aparılacaq sahələrin 5304,0 hektarı buğda, 5907,2 hektarı isə arpa sahələridir. Taxıl sahələrinin 5252,5 hektarı və ya 46,9 faizi kənd təsərrüfatı müəssisələrinin, 5958,7 hektarı və ya 53,1 faizi əhali təsərrüfatlarının payına düşür. Artıq rayonda taxıl biçini başlamışdır. İlkin məlumatlara əsasən 09.06.2026-ci il tarixinə 286,0 hektar arpa sahəsində biçin aparılmışdır. Bu sahələrdən 895,5 ton məhsul yığılmışdır.

Taxıl biçini davam edir.

***Samux Rayon Statistika İdarəsi***

## 2026-cı ilin yanvar-mart aylarında Ağdaşda sənayenin əsas göstəriciləri

***2026-cı ilin yanvar-mart aylarında rayonun sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar, habelə ev təsərrüfatları tərəfindən 22791,9 min manatlıq və əvvəlki ilin müvafiq dövrünə nisbətən sabit qiymətlərlə 8,4 faiz çox sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir.***

İstehsal olunmuş sənaye məhsulunun 4350,5 min manatı və ya 19,1 faizi dövlət, 18441,4 min manatı və ya 80,9 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür. 2026-cı ilin yanvar-mart aylarında sənaye məhsulunun 78,1 faizi emal, 17,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 2,7 faizi mədənçıxarma, 1,3 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Sənaye məhsulu istehsalının fəaliyyət növləri üzrə strukturu

Bu dövrdə istehsal olunmuş sənaye məhsulunun 19906,3 min manatı və ya 87,3 faizi hüquqi şəxslərin, 2669,9 min manatı və ya 11,7 faizi ev təsərrüfatlarının, 215,7 min manatı və ya 1,0 faizi isə fərdi sahibkarların payına düşmüşdür.

***Ağdaş Rayon Statistika İdarəsi***

# Muzdla çalışan işçilərin sayı açıqlandı

***Bu il mayın 1-nə Azərbaycanda muzdla çalışan işçilərin sayı 1 milyon 792,3 min nəfər olub, onlardan 862,8 min nəfəri dövlət sektorunda, 929,5 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.***

"Unikal" bu barədə Dövlət Statistika Komitəsinə istinadən xəbər verir. Məlumata görə, muzdla çalışan işçilərin 18,6 %-i ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,1 %-i təhsil, 13,8 %-i sənaye, 8,7 %-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,6 %-i tikinti, 6,1 %-i dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,4 %-i nəqliyyat və anbar təsərrüfatı, 4 %-i peşə, elmi və texniki fəaliyyət, 2,4 %-i maliyyə və sığorta fəaliyyəti, 2,3 %-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 15 %-i isə iqtisadiyyatın digər sahələrində məşğul olublar.

21_27 IYUl-QARA.qxd 6/11/2026 7:49 PM Page 15





## "Bu dəfə müharibə regionla məhdudlaşmayacaq" - İbrahim Əzizi

***İran məğlublarla mübarizə aparmaqdan qorxmur.***

"Unikal" xəbər verir ki, bu barədə İran parlamentinin üzvü İbrahim Əzizi bildirib.

"Amerikalı itkilərin sayı Trampın iddia etdiyindən daha çoxdur və artmağa davam edəcək. Bu dəfə müharibə yalnız regionla məhdudlaşmayacaq. Görəcəyik nə olacaq", - deyə o sosial şəbəkə hesabında yazıb.

***Ağarza Elçinoğlu***

## "Təsəvvür edin, biz Azərbaycana gedirik" - Paşinyan

***"Mən üç şeyin baş verəcəyini dəqiq bilirəm: dəmir yolu, avtomobil yolu və elektrik xətləri. Bu üç şeydən 100% əminəm. Bu üç şeyin həyata keçirilməsi sülhdür. Təsəvvür edin ki, biz Azərbaycana səyahət edirik, Azərbaycana Ermənistandan qatar keçir və ya əksi. Bu, sülhdür".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan keçirdiyi brifinqdə deyib.

Erməni siyasətçi gələcək regional infrastrukturun əsas elementlərinin dəmir yolları, avtomobil nəqliyyatı və elektrik xətləri olacağını və onların tam şəkildə həyata keçiriləcəyinə bir daha əminliyini bildirib.

***Gülayə Mecid***

## Rusiya geri çağırdığı səfirini yenidən İrəvana qaytardı

***Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin Moskvada məsləhətləşmələrdən sonra İrəvana qayıdıb və yenidən işinə başlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə TASS-a Rusiya Xarici İşlər Nazirliyindən məlumat verilib.

Nazirlikdən bildirilib ki, "O, Rusiya Günü münasibətilə qəbul təşkil edəcək".

Xatırladaq ki, may ayının sonunda Kopırkin Ermənistan rəhbərliyinin Avropa İttifaqı ilə yaxınlaşma istiqamətində atdığı addımlarla bağlı məsləhətləşmələr aparmaq üçün Moskvaya çağırılmışdı.

***Ağarza Elçinoğlu***

## Ermənistan Rusiyanın alternativi kimi Azərbaycanı göstərdi

***"Qonşu ərazidə alternativlər Azərbaycan, Türkmənistan və İrandır".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın Dövlət Xidmətlərinin Tənzimlənməsi Komissiyasının sədri Mesrop Mesropyan deyib.

O, jurnalistin Rusiyadan qaz idxalına mümkün alternativlər barədə sualına cavab olaraq bildirib: "Mən siyasətçi deyiləm və siyasi qərarlarla məşğul deyiləm, ona görə də bu məlumata malik deyiləm. Amma qonşu ərazidə alternativlər Azərbaycan, Türkmənistan və İrandır.

Alternativ qaz satan və infrastrukturu bizə həmin ölkələrdən qaz almağa imkan verən bütün mümkün ölkələrdir".

***Ağarza Elçinoğlu***

# Bay Kemal bizi qova bilməz, istefa edirik! - CHP-də qalmaqal

***Türkiyənin Cümhuriyyət Xalq Partiyasının (CHP) Mərkəzi İcraiyyə Komitəsinin kiritik partiya məclisinin iclasından əvvəl 9 deputatı xaric etmək tələbi irəli sürüb. Bu, partiya daxilində qalmaqala səbəb olub.***

"Unikal" Türkiyə mətbuatına istinadən xəbər verir ki, bunun fonunda Özgür Özəlin komandasından olan 28 Partiya Məclisi üzvü CHP-nin Partiya Məclisindən istefa verib.

Partiya Nizamnaməsinə əsasən, Partiya Məclisinin üzvlərinin sayı ümumi üzv sayının üçdə ikisindən (40 nəfərdən) aşağı düşdüyü təqdirdə, 45 gün ərzində qurultayın keçi-



rilməsi məcburidir.

Qeyd edək ki, Kemal Kılıçdaroğlunun liderlik vəzifəsinə qayıtması ilə Özgür Özel və komandasının səlahiyyət müddəti başa çatıb. Bundan sonra CHP daxilində ikili liderlik yarışı başlayıb. Bu gün Kılıçdaroğlunun qrup iclasında çıxış etməsi gözlənilirdi, lakin Özel ona fürsət vermədən komanda üzvlərinin istefa verdiyini açıqlayıb.

Belə ki, CHP-nin Partiya Şurasının 57 üzvündən 28-i istefa verib.

Beləliklə, Partiya Nizamnaməsinin 24/3-cü maddəsinə uyğun olaraq, həm Partiya Məclisi, həm də onun daxilindən seçilmiş Mərkəzi İcraiyyə Şurası rəsmi olaraq buraxılıb. Partiyanın nizamnaməsinə görə, partiya şurası üzvlərinin yarıdan çoxu istefa verərsə, növbədənkənar seçkilər təyin olunmalıdır.

***Gülayə Mecid***

# Tramp "vəziyyət otağında" təcili görüş keçirdi

***ABŞ Prezidenti Donald Tramp Ağ Evin "vəziyyət otağında" milli təhlükəsizlik komandası ilə təcili görüş keçirib.***

"Unikal" xəbər verir ki, bu barədə "Axios" nəşri məlumat yayıb. Məlumata görə, görüşdə İranla gərginliyin kəskin şəkildə artması, ABŞ-nin İrana son hücumları və mümkün növbəti addımlar müzakirə olunub.

Hesabatda bildirilir ki, Tramp Tehranın nüvə sazişinə cavab verməkdə gecikməsindən narazıdır və İranın vaxt qazanmağa və Vaşinqtonu çaşdırmağa çalışdığına inanır.

ABŞ administrasiyası həm hərbi təzyiqi artırmağı, həm də diplomatik kanalları qoruyub saxlamağı düşünür. Mənbələrə görə, müzakirə olunan variantlardan biri İranı danışıqlar mövqeyini dəyişdirməyə məcbur etmək məqsədi daşıyan genişmiqyaslı, lakin qısamüddətli əməliyyatdır.

***Ağarza Elçinoğlu***



# İran Hörmüz boğazını bağladı - İstənilən gəmi vurulacaq!

***İran Hörmüz boğazını bütün gəmiçiliklər üçün bağlayır.***

"Unikal" xəbər verir ki, bu barədə İran ordusunun Xatəm əl-Ənbiya Mərkəzi Qərargahı məlumat yayıb.

Qeyd olunur ki, boğazdan keçən nəqliyyat bütün növ gəmilər, o cümlədən neft tankerləri və ticarət gəmiləri üçün bağlıdır. Hörmüzdən keçməyə çalışan istənilən gəmi hücuma məruz qalacaq.



İran komandanlığı boğazın bağlanmasını ABŞ-nin "vəhşiliklərinin davam etməsi" və Amerika qoşunlarının Hörmüzqan əyalətinin bəzi cənub bölgələrinə hücumu ilə izah edib.

İyunun 11-də ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) ABŞ ordusunun İrana qarşı əlavə zərbələr endirməyə başladığını bildirib.

***Gülayə Mecid***

# Ruslar müharibəyə getməkdən imtina edirlər

***Rusiyada getdikcə daha az insan Rusiya Müdafiə Nazirliyi ilə müqavilələr imzalamağa və Ukraynaya qarşı döyüşməyə hazırdır.***

"Unikal" xəbər verir ki, bu barədə Müharibə Tədqiqatları İnstitutu (ISW) məlumat yayıb.

Bildirilir ki, bu azalma tendensiyası bir il əvvəl başlayıb və artmaqdadır. Analitiklər hesabatlarında "Əbədi Hekayələr" media orqanının dərc etdiyi bir məqaləni qeyd ediblər. Nəşrin mənbəyi Rusiya federal büdcəsinin xərcləri ilə bağlı məlumatlara istinadən bildirib ki, 2026-cı ilin birinci rübündə Müdafiə Nazirliyi ilə müqavilə imzaladıqdan sonra 71.200 nəfər hərbi xidmətə çağırış üçün birdəfəlik bonus alıb. Bu, 2025-ci illə müqayisədə 20% azdır.

Nəşr analitiklərdən sitat gətirir ki, "2025-ci ilin bütün ili ərzində Rusiya Müdafiə Nazirliyi ilə 363.900 nəfər müqavilə imzalayıb ki, bu da 2024-cü illə müqayisədə 10% azdır".

ISW qeyd edir ki, Rusiya artan itkilər fonunda get-



dikcə daha çox işə qəbul çətinlikləri ilə üzləşir. Buna görə də Kreml bu çatışmazlığı aradan qaldırmaq üçün ehtiyatlar ayırmağa, imza bonuslarını artırmağa və gizli səfərbərlik səylərini genişləndirməyə məcburdur.

***Gülayə Mecid***

21_27 IYUl-QARA.qxd 6/11/2026 7:49 PM Page 16



# FİFA reytinqi açıqlandı, Azərbaycan mövqe itirdi

***FIFA milli komandaların yeni reytinq cədvəlini açıqlayıb.***

Azərbaycan kişilərdən ibarət milli komandası siyahıda 2 pillə geriləyib.

Ötən ay reyntinqdə 124-cü olan Ayxan Abbasovun komandası indi 126-cı yeri tutur (1132.00 xal). Millətlər Liqasında Azərbaycan millisinin rəqiblərindən olan Litva millisi 149-cu (1056.85), Lixtentşteyn isə 206-cu yeri tutur (797.70).

Reytinqə əvvəlkitək son dünya çempionu Argentina millisi (1877.27) başçılıq edir.




# Daha 3 il "Qarabağ"da...

***"Qarabağ" futbolçusu Pedro Bikalyo ilə müqavilə müddətini uzadıb.***

"Unikal" xəbər verir ki, bu barədə klubun mətbuat xidməti məlumat yayıb.

Braziliyalı yarımmüdafiəçi ilə yeni 3 illik sözləşmə imzalayıb. Razılaşmaya əsasən, Pedro Bikalyo 2029-cu ilin yayına qədər Ağdam klubunda çıxış edəcək.




Qeyd edək ki, 2025-ci ildən "Qarabağ"ın formasını geyinən 24 yaşlı futbolçu 51 oyun keçirib və 1 qola imza atıb.

Əlavə edək ki, ötən mövsüm ÇL-in oyunlarından sonra Bikalyoya Avropa və Braziliya klublarından maraq var idi. Onun yayda komandadan ayrıla biləcəyi ehtimalı da vardı. Lakin "Qarabağ" futbolçunu saxlaya bilib.

# "Zirə" 5 futbolçu ilə müqavilə müddətini uzatdı

***"Zirə" 5 futbolçu ilə müqavilə müddətini uzadıb.***

Bu barədə "Unikal"a klubun mətbuat xidmətindən bildirilib.

Bakı təmsilçisi Eren Aydınla 3, Davit Volkov, Aydın Bayramov və Elçin Əlicanovla 2 illik yeni müqavilə bağlayıb.

Həmçinin 2025/2026 mövsümünün əvvəlində "1+1" illik müqavilə imzalanan Enrike Kustodionun anlaşmasındakı 1 illik bənd qüvvəyə minib.



# Bakıda atletika üzrə ölkə çempionatı start götürəcək

***Gənclər və İdman Nazirliyi və Azərbaycan Atletika Federasiyasının (AAF) təşkilatçılığı ilə ölkə çempionatı keçiriləcək.***

Azərbaycan İdman Akademiyasının (AİA) stadionunda və AAF-ın atma növləri üzrə bazasında baş tutacaq yarışda milli komandanın aparıcı üzvləri də daxil olmaqla, ölkənin müxtəlif bölgələrindən olan ən güclü atletlər mübarizə aparacaqlar. İki gün davam edəcək Azərbaycan çempionatı nüfuzlu beynəlxalq yarışlara seçim baxımından mühüm əhəmiyyət kəsb edir. İyunun 12-də saat 16:30-da AİA-nın stadionunda müxtəlif növlər üzrə yarışlar keçiriləcək, ardınca isə çempionatın açılış mərasimi baş tutacaq.

# Arif Əsədov: Dünya çempionatının əsas favoriti kimi Portuqaliyanı görürəm

***Qarşıda bizi təxminən 40 gün davam edəcək böyük futbol bayramı gözləyir. Düzdür, vaxt fərqinə görə müəyyən narahatlıqlar yarana bilər. ABŞ qitəsində keçirilən oyunların bəziləri bizdə gec saatlara təsadüf edəcək. Amma dünya çempionatı futbolun elitasıdır, bu idman növünün ən yüksək zirvəsidir. Burada iştirak etmək hər bir milli komanda, futbolçu və futbolsevər üçün böyük stimuldur.***

"Unikal" xəbər verir ki, bu sözləri AZƏRTAC-a açıqlaması zamanı UEFA-nın Bakıda keçirilən məşqçi kurslarında təlimatçı kimi çalışan Arif Əsədov bu gün start götürəcək dünya çempionatı ilə bağlı danışarkən deyib.

Mütəxəssis açılış qarşılaşması ilə bağlı fikirlərini bölüşüb: "Meksika - Cənubi Afrika oyunu ilə bağlı dəqiq proqnoz vermək çətindir. İlk turlar olduğu üçün komandaların hazırkı durumunu tam qiymətləndirmək mümkün deyil. Məncə, tərəflər təxminən eyni səviyyədədirlər. Meksikanın müəyyən üstünlüyü var və onları cüzi favorit hesab etmək olar. Bununla belə, ilk oyunlarda komandalar adətən risk etmədikləri üçün heç-heçə ehtimalını da yüksək qiymətləndirirəm".

O, mundialda sürpriz nəticələrin də mümkün olacağını bildirib: "Artıq futbol elə bir mərhələyə gəlib çatıb ki, dünyanın hər yerində inkişaf edir. Kiçik ölkələrin milliləri də böyük turnirlərdə uğurlu çıxış edə bilirlər. Bu baxımdan ilk dəfə iştirak edən bəzi komandalar maraq doğurur".

A.Əsədov azarkeşlik edəcəyi komandaların adlarını da açıqlayıb: "Özbəkistan bizə yaxın və postsovet məkanını təmsil edən ölkədir. Türkiyə ilə yanaşı, bu komandaya da xüsusi rəğbət bəsləyirəm və onların uğurlarına sevinəcəyəm. Lakin turnirin əsas favoriti kimi Portuqaliya millisini görürəm".

Qeyd edək ki, mundialın açılış matçı A qrupunda Meksika və Cənubi Afrika Respublikası yığmaları arasında baş tutacaq. Paytaxt Mexiko şəhərində yerləşən "Asteka" stadionunda təşkil olunacaq qarşılaşma Bakı vaxtı ilə saat 23:00-da başlayacaq. Görüşü braziliyalı FIFA referisi Vilton Sampayo idarə edəcək.



# "Qarabağ"da üç futbolçunun son durumu

***"Qarabağ" ötən gün yeni mövsümün hazırlıqlarına start verib.***

Klubun mətbuat xidmətindən QOL.az-a verilən xəbərə görə, bir müddətdir zədədən əziyyət çəkən Bəhlul Mustafazadə və Musa Qurbanlı da artıq sıraya qoşulub:

"Hər iki oyunçu komanda ilə məşqlərə başlayıb. Zədəlilərdən yalnız Joni Montiel hələ komandaya qoşulmayıb. O, iyunun 16-da komandanın düşərgəsində olacaq. Hazırda ölkəsi İspaniyada bərpa prosesini davam etdirir".

Qeyd edək ki, Bəhlul adduktor əzələlərində və qasıq nahiyəsində yaranmış problem səbəbində martın 1-də, ayaq barmağı sınan Montiel mayın 1-də əməliyyat olunmuşdu. Dizində problem olan Musa isə başa çatan mövsümün son oyunlarını buraxmışdı.

# Məktəblilərin Respublika İdman Olimpiadasına start verilir

***Elm və Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı, Bakı Şəhər Halqası Əməliyyat Şirkəti və müvafiq idman federasiyalarının dəstəyi ilə ölkədə ilk dəfə məktəblilərin Respublika İdman Olimpiadası keçiriləcək.***

Elm və Təhsil Nazirliyindən "Unikal"-a bildirilib ki, olimpiada məktəblilər arasında idmanın inkişafı, sağlam həyat tərzinin təşviqi, fiziki hazırlığın yüksəldilməsi və istedadlı gənclərin üzə çıxarılması məqsədi daşıyır.

İştirakçılar ağırlıqqaldırma, atletika, badminton, basketbol, boks, cüdo, yunan-Roma güleşi, sərbəst güləş, bədii gimnastika, stolüstü tennis, taekvondo və velosiped idman növləri üzrə yarışacaqlar. Ümumilikdə ölkəmizin 59 rayon və şəhərini 2000-dən çox məktəbli təmsil edəcək. Olimpiadada iştirak edəcək məktəblilər Elm və Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin tabeliyində, həmçinin Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən uşaq-gənclər idman məktəblərinin yetirmələridir.

Məktəblilərin Respublika İdman Olimpiadasının açılış mərasimi iyunun 20-də Bakı Kristal Zalında keçiriləcək. Yarışlar iyunun 21-26-da baş tutacaq.

# "Barselona" 18 yaşlı hücumçunu transfer etdi

***"Barselona" "Əl-Əhli"dən icarəyə götürdüyü Hamza Abdelkarimin transfer hüquqlarına yiyələnib.***

QOL.az xəbər verir ki, bu barədə tanınmış insayder Fabritsio Romano məlumat yayıb.

Kataloniya klubu 18 yaşlı hücumçu üçün Misir təmsilçisinə 1,5 milyon avro təzminat ödəyib.

Qeyd edək ki, "Barselona" Hamza Abdelkarimi bu ilin fevralında icarəyə götürmüşdü. Gənc futbolçu klubun U-19 komandasında çıxış edirdi.